RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 269 (9436) 9 DEKABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Prezident seçkilərinin nəticəsini Şuşada və Xankəndidə dalğalanan Azərbaycan bayrağı müəyyənləşdirib!



Azərbaycan dövləti və xalqı növbəti seçim qarşısındadır.

İki ay sonra sayca 9-cu prezident seçkisində vətəndaşlarımız ən layiqli namizədə səs verərək Azərbaycanın taleyini, müqəddəratını 7 il müddətinə ona həvalə edəcəklər.

Bu seçimin nəticəsi indidən məlumdur!

Seçkinin nəticəsini Tarixin Ən Qüdrətli Azərbaycanının yeni reallığı müəyyən edib!

Seçkinin nəticəsini Böyük Tarixi Zəfər, Şuşada və Xankəndidə dalğalanan Azərbaycan bayrağı həll edib!

Bu tarixi nailiyyətlərin müəllifi cənab İlham Əliyevə olan ümummilli inam əvvəlki seçkilərin etimad göstəricilərindən daha yüksəkdir!

Xalqımız üçün İlham Əliyev qətiyyətli Prezident, qurucu Rəhbər, qlobal nüfuzlu Lider olmaqla yanaşı, həm də 5 əsrdən sonra qazanılan ən böyük hərbi zəfərin müəllifidir!

* İki əsrlik münaqişəni, 30 illik müharibəni qələbə ilə bitirən, dünya erməniliyinin başını əzən Xilaskardır!

* Xalqımızın əsrlər boyu məruz qaldığı amansız soyqırımların qisasını döyüş meydanında alan yenilməz Sərkərdədir!

* Əbədi Zəfərin Müzəffər Ali Baş Komandanıdır!

* Müstəqillik tarixində Qarabağ və Şərqi Zəngəzurda ilk seçkiləri təmin edəcək, nəhayət ki, bütün Azərbaycanın seçkilərdə iştirakını gerçəkləşdirəcək qüdrətli Liderdir!

Bu seçkilər xalqının öz Rəhbərinə yalnız etimadını bildirmək aksiyası yox, daha çox məhz əbədi minnətdarlığını, müqəddəs borcunu, səmimi sevgisini və bitməyən rəğbətini bir daha bəyan etmək üçün böyük fürsətdir!

→ 5

# Avropa Şurası Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatları yüksək qiymətləndirir

## Prezident İlham Əliyev Avropa Şurasının Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Mariya Peyçinoviç Buriç Azərbaycanın 2001-ci ildən Avropa Şurasının dəyərli üzvü olduğunu vurğuladı. O, ölkəmiz tərəfindən Avropa Şurasının bir çox konvensiyasının imzalandığını və ratifikasiya edildiyini, bir müddət əvvəl Azərbaycan tərəfinin Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyasını imzaladığını xatırladı və bütün bunları müsbət addım kimi dəyərləndirdi. Avropa Şurasının Baş katibi qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatları yüksək qiymətləndirir.

Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi istiqamətində atdığı addımları təqdir etdiklərini deyən Mariya Peyçinoviç Buriç bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanatı və bundan irəli gələn məsələləri, xüsusilə iki ölkə arasında etimad quruculuğu tədbirləri istiqamətində atılan addımları yüksək qiymətləndirdiklərini bildirdi, Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu proseslərinə Avropa Şurasının töhfə verməyə hazır olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası arasında bu illər ərzində çox sıx əməkdaşlığın formalaşdığını qeyd etdi. Prezident İlham Əliyev özünün Avropa Şurası ilə əlaqələrini və Azərbaycan nümayəndə heyətinin AŞ PA-dakı fəaliyyətini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması və ölkələrimiz arasında münasibətlərin normallaşdırılması üçün qarşılıqlı siyasi iradənin bir daha nümayişidir. Dövlət başçısı vurğuladı ki, Avropa Şurası da iki ölkə arasında etimad quruculuğu proseslərinə töhfə vermək üçün çox yaxşı platformadır.

Söhbət zamanı AŞ PA-da Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında da əlaqələrin və konstruktiv dialoqun vacibliyi bildirildi. Praktiki sahələrdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf etdiyi qeyd olundu.

Görüşdə mədəniyyətlərarası dialoq prosesində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığa toxunuldu, bu əməkdaşlığın davam etdirilməsinin önəmi vurğulandı. Ölkəmizdə ənənəvi keçirilən mədəniyyətlərarası dialoq forumunda Avropa Şurasının tərəfdaş qismində çıxış etməsinin, həmçinin Avropa Şurasında islamofobiya meyillərinə qarşı xüsusi nümayəndənin təyin olunmasının təqdir edildiyi bildirildi.

# Gədəbəy rayonunun Kiçik Qaramurad-Cəfərli-Əyrivəng-Alnabat-Kərimli-İnəkboğan-Göyəmli-Şınıx-Göyəlli-Çobankənd-Şahdağ-Çiçəkli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On yeddi min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən Kiçik Qaramurad-Cəfərli-Əyrivəng-Alnabat-Kərimli-İnəkboğan-Göyəmli-Şınıx-Göyəlli-Çobankənd-Şahdağ-Çiçəkli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2023-cü il*

# Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini təyin edib

Dekabrın 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə MSK sədri komissiya üzvlərini növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə tanış edib. Sonra növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunması məsələsinə baxılıb və sərəncamın müvafiq hissəsini təmin etmək məqsədilə seçkilərin 2024-cü il fevralın 7-nə təyin edilməsinə qərar verilib.

Komissiya seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə seçki subyektləri tərəfindən ardıcıl və keyfiyyətlə gerçəkləşdirilməsi, onlara metodiki yardım göstərilməsi və seçki prosesindəki fəaliyyətlərinin səmərəliliyinin artırılması üçün zəruri məqamların əks olunduğu Təqvim planını təsdiq edib.

Sözügedən seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, habelə vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də iclasda baxılıb və komissiyanın qərarı ilə 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılıb. Qanunvericilikdə nəzərdə tutulmuş müddətdən gec olmayaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə dairə seçki komissiyalarına həvalə olunub.

MSK-nın qərarı ilə, həmçinin növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələrində olan imzaların və digər seçki sənədlərindəki məlumatların düzgünlüyünü yoxlamaq üçün müvafiq dövlət qurumlarının mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb və komissiyanın üzvü işçi qrupunun rəhbəri təyin edilib.

Beynəlxalq təşkilat və xarici ölkələrin diplomatik nümayəndəliklərinin, eləcə də media qurumlarının təmsilçilərinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

# Prezidentə inam və etimad sonsuzdur

→ 7

# Növbəti prezident seçkisi bütün ölkə ərazisini əhatə edəcək

→ 7

# Qətiyyət və mərhəmət

## Sülhə gedən yolu İrəvan, Brüssel, Vaşinqton, Paris deyil, Bakı müəyyən edir

Torpaqlarını işğaldan qurtararaq, suverenliyini təmin edərək tarixi ədaləti yoluna qoyan Azərbaycan, ümumilikdə regionda təhlükəsizlik, inkişaf vəd edən yeni çağ yaradıb...

Cəmi üç il əvvələ qədər mümkünsüz görünən hadisələr gerçəyə çevrilib, düşmən ölkələr olan Ermənistan ilə Azərbaycan artıq bu gün birgə açıqlama yayırlar, bir-birilərinə qarşı xoşməramlı addımlar atırlar...

Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlama yayması da buna bariz nümunədir.

→ 7

# "Şansları yoxdur"

## Prezident İlham Əliyev Ermənistana ağır vəziyyətdən bir daha çıxış yolunu göstərdi

Prezident İlham Əliyev savaşdan öncə Ermənistan ordusunun hansı prinsiplər və əsaslar üzərində qurulduğunu, hansı mənəvi normalarla idarə edildiyini vurğulamaqla silahlı qüvvələrin güc mənbəyini göstərirdi. Amma Ermənistan rəhbərliyi öz ordusuna güvənərək dəfələrlə hərbi təxribatlara əl atdı və nəticədə silahlı birləşmələri 2020-ci ildə cəmi 44 günə Azərbaycan Ordusu qarşısında diz çökdü. Prezident İlham Əliyevin söylədiyi həqiqət bir daha Ermənistana dərs oldu.

Dekabrın 6-da Azərbaycan Prezidenti bir daha sülh müqaviləsini imzalamaqdan yayınan, Fransa, Hindistan tərəfindən silahlanmağa can atan rəsmi İrəvana xəbərdarlıq etdi.

→ 7

## Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Pirallahı rayonunun Pirallahı qəsəbəsi ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 300,0 (üç yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031; 2023, № 8 (I kitab), maddə 1167) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində "5 642 390 (beş milyon altı yüz qırx iki min üç yüz doxsan)" sözləri "245 157 852,36 (iki yüz qırx beş milyon yüz əlli yeddi min səkkiz yüz əlli iki manat otuz altı qəpik)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2023-cü il*

# Avropa Şurasının Baş katibi lokal antiterror tədbirlərinin səbəbləri barədə məlumatlandırılıb

Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycanla Avropa Şurası (AŞ) arasında mövcud əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Milli Məclisin Sədri Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı çərçivəsində görülmüş işləri, həyata keçirilmiş birgə proqramları qeyd edib, 2022-2025-ci illəri əhatə edən yeni Fəaliyyət Planını əlaqələrin dərinləşməsində mühüm vasitə kimi qiymətləndirib. Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şurasının dəyərli üzvü olduğunu vurğulayıb. O, Azərbaycan parlament nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasında fəal iştirakını qeyd edib. Ölkəmizin bir sıra mühüm konvensiyalara qoşulduğunu deyərək, bu məsələdə parlamentin mühüm rolu olduğunu bildirib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova regionda gedən proseslər barədə ətraflı məlumat verib. Parlamentin spikeri işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində görülmüş işlər, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması üzrə təşəbbüsləri haqda danışıb. Həmçinin qonaq cari ilin sentyabr ayında Qarabağ bölgəsində aparılmış lokal antiterror tədbirlərinin səbəbləri, mahiyyəti və nəticələri barədə məlumatlandırılıb. Bu tədbirlərin beynəlxalq hüquqa uyğun şəkildə həyata keçirildiyi, mülki əhaliyə qarşı heç bir zorakılıq faktının qeydə alınmadığı, Azərbaycanın öz suverenliyini bərpa etdiyi ifadə olunub.

Milli Məclisin Sədri qeyd edib ki, bu gün artıq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur. Bu mənada, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması üçün mühüm addım kimi qiymətləndirilib. Hər iki ölkənin yaxın gələcəkdə əlavə etimad tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirməyə razılığını ifadə etməsi və tərəflərin beynəlxalq ictimaiyyəti bu səyləri dəstəkləməyə çağırması bəyanatın mühüm cəhəti kimi səciyyələndirilib.

Bu kontekstdə Avropa Şurasının Azərbaycan və Ermənistan arasında etimad quruculuğu proseslərinə töhfə verə biləcək platforma rolunu oynamaq imkanlarına toxunulub. Milli Məclisin Sədri mövcud reallıqları təhrif edən, iki ölkə arasında normallaşma prosesini zədələyən, sülh sazişinin tezliklə imzalanması perspektivlərinə xələl gətirən addımlara yol verilməməsini zəruri hesab edib.

Söhbət zamanı AŞ-nin Baş katibi regionda davamlı sülhün təmin edilməsi istiqamətində ölkəmizin atdığı addımları təqdir etdiklərini bildirib. Mariya Peyçinoviç Buriç Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu proseslərinə Avropa Şurasının töhfə verməyə hazır olduğunu vurğulayıb.

Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə olunduğu görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Azərbaycanın AŞ yanında daimi nümayəndəsi səfir Fəxrəddin İsmayılov, AŞ-nin Bakı ofisinin rəhbəri səfir Petr Zix və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Rusiya parlamentinin nümayəndə heyəti Fəxri xiyabanı ziyarət edib

Dekabrın 8-də ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskinin başçılıq etdiyi nümyəndə heyəti Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatları, Rusiya ilə əlaqələr üzrə işçi qrupunun üzvləri Mixail Zabelin, Ağalar Vəliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Parlamentlərarası əməkdaşlıq komissiyasının 20-ci yubiley iclası keçirilib

Dekabrın 8-də Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası əməkdaşlıq komissiyasının 20-ci yubiley iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasa Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli və Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin həmsədrlik ediblər.



Tədbiri açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qonaqlara Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını və xoş arzularını çatdırıb. O, Andrey Yatskini Parlamentlərarası komissiyanın həmsədri vəzifəsinə təyin olunması münasibətilə də təbrik edib, ona bu vəzifədə uğurlar diləyib. Əli Hüseynli komissiyanın 20-ci yubiley iclasının "Heydər Əliyev İli"ndə reallaşdığını qeyd edərək, Ulu Öndərin yubiley tədbirlərinin Rusiyada yüksək səviyyədə keçirilməsinə görə, həmçinin Milli Məclisin Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakına görə rusiyalı həmkarlarına təşəkkürünü bildirib.

Əli Hüseynli Azərbaycan və Rusiya dövlət başçılarının səyləri nəticəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsindən bəhs edərək, hər iki ölkənin bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib. Milli Məclis Sədrinin birinci müavini komissiyanın ötən iclasından sonrakı dövr ərzində regiondakı situasiya barədə qısa məlumat verib. O, cari ildə Azərbaycanın həyata keçirdiyi uğurlu lokal antiterror tədbirlərinin Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış 10 noyabr tarixli üçtərəfli Bəyanatın 4-cü maddəsinə tam uyğun olduğunu, nəticədə, ölkəmizin bütün ərazisində suverenliyin tam bərpa edildiyini bildirib.

Birinci vitse-spiker Ermənistan-Azərbaycan münaqişəsinin hələ 1988-89-cu illərdə azərbaycanlıların Ermənistandan tamamilə deportasiyası ilə başladığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Qeyd olunub ki, Ermənistandan olan yüz minlərlə azərbaycanlı indiyədək qaçqındır və onlar öz tarixi vətənlərinə dönməyə ümid edirlər. Əli Hüseynli Azərbaycan və Ermənistan arasında bağlanacaq sülh müqaviləsinin bu problemi də həll edəcəyinə ümidini ifadə edərək, Azərbaycanın sülh sazişinə nail olmaq niyyətini bir daha vurğulayıb.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin çıxışında bildirib ki, Azərbaycan Rusiya üçün dost və strateji tərəfdaş ölkədir. Hazırda ölkələrimiz arasında əməkdaşlıq yüksək səviyyədədir. O, bu əməkdaşlığın davam etdirilməsində parlamentlərarası əlaqələrin əhəmiyyətindən danışıb, münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası əməkdaşlıq komissiyanın 20 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonra iclasda gündəlikdə olan məsələlərə dair məruzələr dinlənilib.

Azərbaycan tərəfindən Milli Məclisin Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, deputatlar Elnur Allahverdiyev, Mixail Zabelin, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Rusiya parlamentinin Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədri Qriqori Karasin, Federasiya Şurasının üzvləri Aleksandr Başkin, Qalina Karelova, Rusiya parlamentinin Dövlət Dumasının deputatı Kazbek Taysayev ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın dərinləşdirilməsi və inkişaf etdirilməsi, ticarət-iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi perspektivləri və tendensiyaları kimi məsələlər barədə məruzələrlə çıxış ediblər.

Müzakirələrdə Milli Məclisin deputatı Emin Hacıyev, Sevinc Hüseynova çıxış edərək Azərbaycan-Rusiya münasibətlərinə dair təkliflərini səsləndiriblər.

Gündəlikdəki məsələlərin müzakirəsindən sonra Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası əməkdaşlıq komissiyasının 20-ci iclası başa çatıb.

İclasda Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası əməkdaşlıq komissiyası həmsədrinin müavini Ağalar Vəliyev, komissiyanın üzvləri Azər Badamov, Rasim Musabəyov, Arzu Nağıyev, İvan Abramov, Sergey Leonov, Dmitri Savelyev, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdakimov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb

Dekabrın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının (AŞ) Baş katibi Mariya Peyçinoviç Buriç ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan və Avropa Şurası arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə bölgədə cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın AŞ-yə üzv olmasından ötən müddət ərzində insan hüquqlarının qorunması, qanunun aliliyi və demokratiyanın inkişafı sahələri üzrə təşkilatla yaxından əməkdaşlıq etdiyini, aidiyyəti üzrə bir sıra konvensiyalara qoşulduğunu, habelə müxtəlif birgə proqramların həyata keçirildiyini məmnunluqla qeyd edib. Bu il mayın 17-də Reykyavik şəhərində keçirilən AŞ-nin Dövlət və Hökumət Başçılarının 4-cü Zirvə Görüşünə istinad edən nazir Ceyhun Bayramov, AŞ çərçivəsində əməkdaşlığın genişləndirilməsi imkanlarının müzakirəsi baxımından bu kimi görüşlərin əhəmiyyətli rol oynadığını qeyd edib.

Azərbaycan ilə AŞ arasında mövcud Fəaliyyət Planı üzrə görülən işlərdən bəhs edən tərəflər xüsusilə ədliyyə sisteminin təkmilləşdirilməsi, medianın inkişafı və digər istiqamətlərdə əməkdaşlığın səmərəli nəticələr verdiyini bildiriblər.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə apardığı genişmiqyaslı bərpa-quruculuq işləri, bu fəaliyyətə və vətəndaşlarımızın təhlükəsizliyinə hədə olan mina təhdidi, Qarabağ bölgəsindəki erməni sakinlərin reinteqrasiyası, Azərbaycan-Ermənistan normallaşma prosesi barədə qarşı tərəf ətraflı məlumatlandırılıb. Cari ilin sentyabr ayında Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirlərini şərtləndirən amillərdən bəhs edən nazir Ceyhun Bayramov, ərazilərimizdə qeyri-qanuni erməni silahlı qüvvələrinin mövcudluğunun bu qəbildən ən böyük təhdidlərdən biri olduğunu qeyd edib. Bu istiqamətdə sözügedən antiterror tədbirlərinin görülməsinin bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi qarşısında duran maneələrin aradan qaldırılmasında əhəmiyyətli rol oynadığını qeyd edib. Antiterror tədbirlərindən sonra bölgəyə səfər edən Avropa Şurası daxil olmaqla, bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin də təsdiq etdiyi kimi, Ermənistan tərəfindən ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası çərçivəsində irəli sürülən iddiaların əksinə, mülki şəxslərə qarşı heç bir zorakılıq faktının müşahidə olunmadığı vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə olunub.

# Azərbaycanın xarici işlər naziri estoniyalı həmkarı ilə telefonla danışıb

Dekabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Estoniyanın xarici işlər naziri Marqus Tsahkna arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı regionda hazırkı proseslər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri müzakirə mövzusu olub.

Nazirlər ikitərəfli siyasi dialoqun intensivləşməsinin və qarşılıqlı səfərlərin iki ölkə arasında münasibətlərin daha da inkişafı üçün əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıblar.

Nazir Ceyhun Bayramov Azərbaycan-Ermənistan normallaşma prosesinin perspektivləri, eləcə də son dövrlər bölgədə sülh və sabitliyə, iki ölkə arasında etimad yaradılmasına xidmət edən addımlar barədə qarşı tərəfə məlumat verib. Bu ilin sentyabrında bölgədə aparılan antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin ərazilərimizdə mövcudluğuna son qoyulmasından sonra sülh prosesində real irəliləyişlər əldə edilməsi üçün geniş potensialın mövcud olduğu diqqətə çatdırılıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər regional və ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Milli Məclisin iclasında

# Prezident seçkiləri Azərbaycanda demokratiyanın növbəti təntənəsi olacaq

**Dekabrın 8-də Milli Məclisin payız sessiyasında növbəti iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Prezident İlham Əliyevin Sərəncamı ilə növbədənkənar prezident seçkilərinin elan edilməsi barədə fikirlərini bildirib.**

Bununla əlaqədar bir neçə məqama diqqət çəkən spiker bildirib ki, 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında birgünlük antiterror tədbirləri nəticəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. 2024-cü il fevralın 7-də təşkil ediləcək növbədənkənar prezident seçkiləri bu reallıqların təsbitidir və müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər ölkəmizin bütün ərazisində keçiriləcək.

Milli Məclisin Sədri bildirib ki, növbədənkənar prezident seçkilərini Zəfər seçkiləri də adlandırmaq olar. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi bütün vədləri tam yerinə yetirib. Ümummilli Liderimiz Heydər Əliyevin ən böyük arzusu həyata keçirilib və Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulub. Bu gün Azərbaycanın üçrəngli bayrağı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda qürurla dalğalanır.

Spiker qeyd edib ki, Ulu Öndər tərəfindən təməli qoyulmuş inkişaf strategiyasını yeni çağırışlar şəraitində layiqincə davam etdirən Prezident İlham Əliyev heyrətamiz şəxsi keyfiyyətləri, Vətən və dövlət qarşısında müstəsna xidmətləri ilə xalqımızın tükənməz hörmət və məhəbbətini qazanıb.

Onun rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb. İlham Əliyevin siyasət sənətinin incəliklərinə dərindən bələdliyi, fenomenal liderlik qabiliyyəti və yaradıcı dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişib. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevirib.

Milli Məclisin Sədri onu da qeyd edib ki, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi bir praktikadır. Seçkilər bəzi hallarda, məsələn, hərbi və fövqəladə vəziyyətlərdə təxirə salınır, bəzi hallarda isə vaxtından əvvəl keçirilir. Azərbaycan Respublikasının Seçki Məcəlləsi növbəti prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar prezident seçkilərinin keçirilməsi arasında hər hansı prosedur, yaxud müddət fərqi müəyyən etmir. Seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız siyasi iradələrini, sadəcə olaraq, vaxtından əvvəl ifadə edəcəklər.

Spiker bildirib ki, "Qarabağ Azərbaycandır!" şüarı dilindən düşməyən xalqımız uzun illər ağır zəhmət hesabına bu şüarı gerçəkliyə çevirmiş ölkə rəhbərinin yeni seçkilərdə də yanında olacaq, onun xarici və daxili siyasətini, o cümlədən Qarabağda, Şərqi Zəngəzurda və ölkənin digər bölgələrində həyata keçirilən quruculuq işlərini fəal şəkildə dəstəkləyəcək.

Növbədənkənar prezident seçkiləri regionda tam müstəqil bir dövlətin olmasını və Azərbaycanın Qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin daha da güclənməsini təmin edəcəkdir.

Milli Məclisin Sədri əminliklə söyləyib ki, gələn il fevralın 7-də şəffaf şəraitdə keçiriləcək azad və ədalətli prezident seçkiləri ölkəmizdə demokratiyanın təntənəsinə çevriləcək, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bu seçkilərdə də öz müdrik qərarını verəcəkdir.

Spiker bir məqama da nəzər salaraq deyib ki, Vətən müharibəsində qələbədən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə Ermənistanla sülh danışıqları aparılmaqdadır. Artıq bu gün söyləmək olar ki, bu danışıqların müsbət nəticələri vardır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Baş naziri Aparatının birgə bəyanatı dərc edilib. Hər iki tərəf belə bir fikrə şərik olduğunu bildirib ki, regionda çoxdan gözlənilən sülhə nail olmaq üçün tarixi imkan yaranıb. Suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında münasibətləri normallaşdırmaq və sülh müqaviləsi bağlamaq niyyəti təsdiq edilib. Bəyanatda sülh sazişini yaxınlaşdıran bir sıra addımlar nəzərdə tutulub.

Milli Məclisin Sədri bu addımların davamını yaxın zamanda müşahidə edəcəyimizi diqqətə çatdırıb.

Sonra spiker bildirib ki, 105 il əvvəl - 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti fəaliyyətə başlamışdır. Son dərəcə mürəkkəb şəraitdə bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi xalqımızın demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərən tarixi bir hadisə idi. O, bu tarixi gün münasibətilə deputatlara təbriklərini çatdırıb.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, Ziyafət Əsgərov, deputatlar Ceyhun Məmmədov, Fəzail Ağamalı, Musa Qasımlı, Qüdrət Həsənquliyev, Elman Nəsirov, Aydın Hüseynov, Vüqar Bayramov, Bəhruz Məhərrəmov, Azər Badamov, Tahir Kərimli, Razi Nurullayev, Elşad Mirbəşir oğlu, Kamal Cəfərov, Elşən Musayev çıxış ediblər.

Deputatlar Azərbaycan Prezidenti İlham Əliyevin cari il dekabrın 7-də imzaladığı "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncamı ilə əlaqədar fikirlərini bölüşüblər. Millət vəkilləri ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının öz torpaqları uğrunda möhtəşəm Zəfər əldə etdiyini vurğulayaraq, bu Qələbənin regionda yeni reallıqlar yaratdığını, bu gün qarşımızda dövlətçiliyimizin möhkəmləndirilməsi, Qarabağda həyata keçirilən quruculuq işlərinin gücləndirilməsi ilə bağlı və digər mühüm hədəflərin olduğunu bildiriblər. Qeyd edilib ki, ölkənin bütün ərazisində suverenliyimiz bərqərar olunub və qalib Azərbaycan bu gün regionun lider dövlətidir.

Çıxışlarda hazırda ölkəmizdə azad, demokratik, ədalətli seçkilərin keçirilməsi üçün lazımi şəraitin yaradıldığı deyilib. Qarşıdan gələn prezident seçkilərində xalqımızın yüksək fəallıq nümayiş etdirərək, Azərbaycanın yeni nailiyyətlər qazanması, daha böyük uğurlara imza atılması üçün cənab İlham Əliyevə səs verəcəyinə əminlik ifadə olunub. Bu seçkilərin ölkəmizdə sabitliyin, təhlükəsizliyin möhkəmlənməsinə, siyasi, iqtisadi sahələrdə islahatların davam etdirilməsinə töhfə verəcəyi bildirilib.

Daha sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İlk olaraq "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə qərar layihəsi müzakirə edilib.

Qərar layihəsi səsə qoyularaq qəbul edilib. Qərara əsasən, deputat Fazil Mustafa Milli Məclisin Mədəniyyət komitəsinin sədri vəzifəsinə təsdiq edilib.

Növbəti məsələ olan "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə qərar layihəsi də təsdiqlənib. Qərara əsasən, deputat Ülviyyə Həmzəyeva Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini vəzifəsinə təsdiq olunub.

Parlamentin Sədri yeni seçilən komitə sədri və komitə sədrinin müavinini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Komitə sədri 12 fəsil, 84 maddədən ibarət Rəqabət Məcəlləsi ilə bağlı geniş müzakirələrin keçirildiyini söyləyib, layihənin birinci və ikinci oxunuşları zamanı səsləndirilən təkliflərin araşdırıldığını, onların bir hissəsinin qanunvericilik subyekti ilə razılaşdırılaraq, layihədə öz əksini tapdığını deyib və edilən dəyişikliklər barədə məlumat verib.

Komitə sədri məcəllənin 2024-cü il iyulun 1-dən qüvvəyə minməsinin nəzərdə tutulduğunu bildirib. Qeyd edib ki, layihədə "müvafiq bazarın sərhədlərinin" ifadəsi "müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin" ifadəsi ilə əvəz olunur. Bir sıra maddələrdə "rəqibin təsərrüfat fəaliyyəti" ifadəsi "rəqibin sahibkarlıq fəaliyyəti" ifadəsi ilə əvəzlənir. Digər düzəlişlərdə "dərc olunan" sözlərindən sonra "(yayımlanan)" sözü əlavə edilir, "zəruri hallarda tərcüməçinin dəvət olunması" ifadəsindən "zəruri hallarda" sözləri çıxarılır.

Nəzərə çatdırılıb ki, daha bir dəyişiklik "Hal şahidlərinin iştirakı" adlanan 54-cü maddədə videoçəkilişin olması ilə bağlıdır. Yenilənmiş mətndə bildirilir ki, məcəllədə nəzərdə tutulmuş hallarda yoxlama zamanı rəqabət orqanı tərəfindən baxış və götürmə fasiləsiz videoçəkiliş aparılmaqla həyata keçirilir.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Komitə sədri Tahir Mirkişili "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (üçüncü oxunuş) barədə də məlumat verib. 6 fəsil və 27 maddədən ibarət qanun layihəsində ikinci oxunuşdan sonra səsləndirilən fikirlərlə bağlı bəzi dəyişikliklərin edildiyini söyləyib. Bildirilib ki, sənəddə 1.1.4-cü maddədə "maddi və qeyri-maddi nemətlər" ifadəsi "maddi və qeyri-maddi əmlak" ifadəsi ilə əvəz olunur. Qiymətləndirmə fəaliyyətinin istiqamətləri konkretləşdirilərək bir neçə fəaliyyət istiqaməti bir ümumi bənddə təqdim olunur. Qanunun tətbiqi qiymətli metal külçələrinin qiymətləndirilməsi zamanı istisna edilir. 12.1.7-ci maddədə "qərəzsiz, düzgün" sözləri "obyektiv" sözü ilə əvəz olunur. QHT-lərdə üzvlük könüllü xarakter daşıdığı üçün 18.3-cü maddədə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanuna istinad ləğv edilir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Daha sonra iclasda "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (ikinci oxunuş) diqqətə çatdırılıb. Komitə sədri Tahir Mirkişili sənəddə bir sıra düzəlişlərin edildiyini bildirib. O, diqqətə çatdırıb ki, 5.1-ci maddəyə əsasən, strateji əhəmiyyətli malların siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq edilir. Təklif olunur ki, bu siyahı yalnız strateji əhəmiyyətli malların adlarını deyil, eyni zamanda həmin malların (onların bir hissəsinin) ölkə üzrə tələb olunan minimal həcmlərini də əks etdirsin. 6.1.2-ci maddəyə təklif olunan düzəlişə əsasən, strateji və fövqəladə ehtiyatların tədarükü və təchizatçıların seçilməsi sahəsində dövlətin vəzifələrinin səfərbərlik ehtiyatlarına da şamil edilməsi təmin olunur.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

"Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi də müzakirələrdən sonra ikinci oxunuşda təsdiq edilib.

İclasda "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (ikinci oxunuş) də müzakirə olunub. Bildirilib ki, 15 fəsil, 68 maddədən ibarət qanun layihəsi Azərbaycanın hava məkanından istifadəni və aviasiya sahəsində fəaliyyəti tənzimləyir, aviasiyada təhlükəsizliyin, o cümlədən dövlətin müdafiəsinin, əhalinin və iqtisadiyyatın hava daşımaları və aviasiya işləri ilə əlaqədar ehtiyaclarının təmin edilməsi üçün həyata keçirilən tədbirlərin hüquqi və təşkilati əsaslarını müəyyən edir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, layihədə adıçəkilən qanunlara edilən dəyişikliklərin Cinayət Məcəlləsinə uyğunlaşdırma məqsədi daşıdığını söyləyib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev rəhbərlik etdiyi komitənin sənədlə bağlı müsbət rəyini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Bildirib ki, qanun layihəsi mühasibat uçotunu məcburi qaydada elektron formada aparacaq mühasibat uçotu subyektlərinin dairəsinin müəyyən edilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Arbitraj haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edib. Deputat ölkəmizdə yeni arbitraj təsisatının formalaşmasının dövlət başçısının rəhbərliyi altında həyata keçirilən hüquqi islahatların bir mərhələsi olduğunu deyib. Bildirib ki, arbitraj təsisatının yaradılması iqtisadi fəaliyyət sahəsində meydana gələn mübahisələrin səmərəli alternativ üsulu olaraq məhkəmələrin iş yükünün əhəmiyyətli dərəcədə azaldılmasına xidmət edəcək.

Qanun arbitrajın həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyir, arbitraj sazişinə dair tələbləri, Azərbaycan Respublikasında arbitraj məhkəmələrinin və daimi arbitraj təşkilatlarının təşkili, fəaliyyət göstərməsi, arbitraj icraatının aparılması, arbitraj qərarlarının tanınması və icrası qaydalarını müəyyən edir.

8 fəsil və 59 maddədən ibarət olan sənəddə əsas anlayışlar, qanunun tətbiq dairəsi, arbitraj təşkilatlarının təşkili formaları və prinsipləri, arbitrajda baxılan işlər, arbitraj sazişi, arbitraj icraatı və digər məsələlərlə bağlı müddəalar ehtiva olunur.

Deputatlar Vüqar Bayramov və Qüdrət Həsənquliyev bəzi qeydlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, layihədə adları çəkilən qanunların icrası ilə bağlı 21 normativ hüquqi aktda, o cümlədən 2 məcəllədə və 19 qanunda uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Qeyd edilib ki, layihədə Cinayət-Prosessual Məcəlləsinə "Prosessual sənədlərin rəsmi qaydada verilməsi" və "Cinayət təqibi üzrə qiyabi icraat" adlanan iki yeni fəslin əlavə edilməsi təklif olunur.

Əlavə edilməsi nəzərdə tutulan IV-I fəsildə prosessual sənədlərin çatdırılması, çağırış vərəqəsi, qəbzin məzmunu və prosessual sənədləri qəbul etməkdən imtina qaydaları ətraflı olaraq müəyyən edilir. Əlavə olunacaq LIV-II fəsil isə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin barəsində aşağıdakı 2 halda - təqsirləndirilən şəxs Azərbaycanın ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndikdə və Azərbaycanın ərazisindən kənarda olan təqsirləndirilən şəxs çağırışa gəlməkdən qəsdən boyun qaçırdıqda - cinayət təqibinin qiyabi icraat qaydasında aparılması imkanını nəzərdə tutur. Cinayət Məcəlləsinin qeyd edilən bu maddələri ilə yanaşı, cinayətlərin məcmusu üzrə həmin məcəllənin digər maddələri ilə də ittiham olunan təqsirləndirilən şəxs barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, qanunun 11-ci maddəsinin 15-ci hissəsinə təklif olunan dəyişiklik məhkəmə ekspertizası idarələrinin ekspertlərinə hərbi rütbənin verilməsini, 39-cu maddənin ikinci hissəsinə təklif olunan dəyişiklik hərbi rütbəyə görə pul əlavəsinin ödənilməsini müəyyən edir. Bununla yanaşı, məhkəmə-psixiatriya ekspertizası müstəqil ekspertiza olduğu üçün qanunun 23-cü maddəsinin ikinci hissəsinə texniki xarakterli dəyişikliyin edilməsi təklif olunur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, qanun layihəsi maliyyə hesabatları və mühasibat uçotu sənədləri təqdim edilərkən dövlət və ya kommersiya sirri hesab edilən məlumatların qorunmasının tənzimlənməsi məqsədilə hazırlanıb. Sənəddə, həmçinin iqtisadi sahədə dövlət sirrini təşkil edən məlumatların dairəsi dəqiqləşdirilir və buraya hərbi məhsulları işləyib hazırlayan və ya istehsal edən müəssisələrlə yanaşı, eyni zamanda bu məhsulların ixracını, satışını həyata keçirən, həmçinin bu işi təşkil edən müəssisələr və onların maliyyə hesabatları da aid edilir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov sənədlə bağlı rəyləri təqdim etdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) nəzərə çatdırıb. O bildirib ki, Əmək Məcəlləsinin 5 maddəsinə 10 dəyişiklik təklif edilir. Dəyişikliklər həm mahiyyət etibarı ilə normadəyişdirici, həm də stilistik xarakterlidir. Qeyd edilib ki, mahiyyətcə dəyişikliklər qadınların məşğulluq imkanlarını məhdudlaşdıran normaların aradan qaldırılması və qadınların orta əməkhaqlarının kişilərin əməkhaqlarına çatdırılması məqsədi daşıyır.

Layihədə gecə vaxtı, iş vaxtından artıq işə cəlbedilmə və ezamiyyətə göndərilmə ilə bağlı qadınların hüquqları genişləndirilir. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin sağlamlıq imkanları məhdud uşağı olan qadınların kişilərlə bərabər qaydada gecə işlərində işləmələrinə, iş vaxtından artıq işə cəlb edilmələrinə və ezamiyyətə göndərilmələrinə yalnız onların yazılı razılığı ilə icazə verilməsi nəzərdə tutulur. Sənəddə əks olunan digər dəyişikliyə görə, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər də gecə vaxtı yerinə yetirilən işlərə yalnız onların yazılı razılığı ilə cəlb edilə bilərlər.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova komitənin məsələ ilə bağlı müsbət rəy verdiyini diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, növbəti iki məsələ ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, layihədə Əmək Məcəlləsinin müvafiq maddələrinə əsasən əmək müqaviləsinə xitam hallarının da işsizlikdən sığortanın əhatə dairəsinə daxil edilməsi, həmçinin sığorta ödənişinə uşağa görə əlavənin ailədəki bütün uşaqlar üçün verilməsi, həmin ödənişin müddətli əmək müqaviləsinin bitməsi ilə xitam hallarına da şamil edilməsi, müddətli əmək müqaviləsi üzrə tələb edilən sığorta stajının 30 aydan 24 ayadək azaldılması, fərdi məşğulluq proqramının icrasını üzrlü səbəbdən icra etmədiyi üzrlü halların konkret olaraq müəyyən edilməsi ilə bağlı müddəalar öz əksini tapıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Layihədə sığortaedən tərəfindən işçilərin işsizlikdən sığorta etdirilməməsi və işçinin peşəsi, ixtisası və əməkhaqqı barədə sığortaçıya rəsmi məlumat verilməməsinə görə inzibati xətalar haqqında işlərə müəyyən edilən qaydalar çərçivəsində baxılması təklif edilir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin son 7 məsələsi ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub, məzmun və mahiyyət baxımından bir-birinə yaxındır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim edib.

Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklə bağlı bildirilib ki, layihə dəniz nəqliyyatı sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə əlaqədar hazırlanıb. Sənəddə "dəniz əməliyyatları bazası", "dənizçi" və digər yeni anlayışlar müəyyən edilir, bəzi anlayışlar dəqiqləşdirilir.

Deputat "Dəniz limanları haqqında" qanunda ediləcək dəyişikliklə bağlı nəzərə çatdırıb ki, sənəddə iki istiqamət üzrə dəyişikliklər təklif olunur. Belə ki, layihədə tariflər tətbiq ediləcək dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyətinin əhatə dairəsinin müəyyən edilməsi, habelə qanunvericilik praktikasının tələblərinə uyğun olaraq və eyni zamanda bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən orqanın - Dövlət Dəniz və Liman Agentliyinin publik hüquqi şəxs statuslu olmasını nəzərə alaraq, "müvafiq icra hakimiyyəti orqanı" ifadəsinin "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" ifadəsi ilə əvəz edilməsi nəzərdə tutulur.

Anar Məmmədov "Dövlət rüsumu haqqında" qanunda ediləcək dəyişikliyə dair məlumatında bildirib ki, sənəd dəniz nəqliyyatı sahəsində bəzi sənədlərin adlarının dəqiqləşdirilməsini, iki sənədin - Gəmi tarixinin fasiləsiz qeydlər sənədinin və Dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən təlim-tədris mərkəzlərinə, habelə fiziki və hüquqi şəxslərə onların fəaliyyətinin beynəlxalq konvensiyaların tələblərinə uyğun olması barədə Şəhadətnamənin verilməsinə görə rüsumların müəyyənləşdirilməsini ehtiva edir.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli gündəliyin digər 3 məsələsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxıldığını bildirib.

Komitənin üzvü Kamal Cəfərov bu 3 məsələni - Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihələrini təqdim edib. Bildirilib ki, Miqrasiya Məcəlləsində nəzərdə tutulan dəyişiklikdə Məcəllənin 3.0.17-ci maddəsində "dənizçi kitabçası (vəsiqəsi)" sözləri "dənizçinin şəxsiyyət sənədi" sözləri ilə əvəz edilir. Cinayət Məcəlləsinə təklif edilən dəyişiklikdə 252-ci maddənin adında və 252.1-ci maddədə "dəniz mühitini" sözləri "dəniz ətraf mühiti" sözləri ilə əvəz edilir. İnzibati Xətalar Məcəlləsində olan dəyişiklikdə 312 və 313-cü maddələrin adları və dispozisiyaları dəqiqləşdirilir, 307.4-cü maddənin dispozisiyası genişləndirilir, yeni 307.5-ci maddə əlavə olunur.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanunun 7.10.3-cü maddəsində "dəniz mühiti" sözləri "dəniz ətraf mühiti" sözləri ilə əvəz olunur.

7 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

### "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 10 mart tarixli 7-VIQR nömrəli Qərarında ("Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı", 2020, №1) aşağıdakı dəyişiklik edilsin:

"Qənirə Ələsgər qızı Paşayeva" sözləri "Fazil Qəzənfər oğlu Mustafa" sözləri ilə əvəz edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 8 dekabr 2023-cü il*

---

### "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 10 mart tarixli 8-VIQR nömrəli Qərarında ("Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı", 2020, №1) aşağıdakı dəyişiklik edilsin:

"Fazil Qəzənfər oğlu Mustafa" sözləri "Ülviyyə Tapdıq qızı Həmzəyeva" sözləri ilə əvəz edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 8 dekabr 2023-cü il*

# Heydər Əliyev Mərkəzində FIA Baş Assambleyasının yekun iclası başa çatıb







Dekabrın 8-də Heydər Əliyev Mərkəzində Beynəlxalq Avtomobil Federasiyası - FIA Baş Assambleyasının illik yekun iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Azərbaycan Avtomobil Federasiyasının (AAF) prezidenti Anar Ələkbərov qonaqları salamlayıb.

Anar Ələkbərov FIA Baş Assambleyasının iclasının və mükafatlandırma mərasiminin Bakıda keçirilməsinin əhəmiyyətindən danışıb, belə tədbirlərin məqsədinin ictimaiyyətin avtomobil idmanı sahəsinə marağının artmasına, Azərbaycanda bütün yol hərəkəti iştirakçılarını təhlükəsiz, dayanıqlı və əlçatan hərəkətlilik mövzusunda maarifləndirməyə yönəldiyini bildirib.

"Azərbaycan Avtomobil Federasiyası mütəmadi olaraq avtoidman sahəsində yarışlar, drift məşqləri, yolsuzluq avtomobilləri yürüşləri, kartinq yarışları, klassik avtomobillərin nümayiş olunduğu sərgi və yürüşlər təşkil edir, digər layihələr həyata keçirir", - deyən federasiya prezidenti ölkəmizin 2016-cı ildən etibarən Formula 1 yarışlarına evsahibliyi etdiyini xatırladıb. Bakı şəhərinin gözəl küçələrində Formula 1 yarışının uğurla keçirilməsində göstərdiyi dəstəyə görə FIA-ya təşəkkürünü çatdırıb. O cümlədən Bakıda FIA həftəsinin uğurlu və yaddaqalan olmasında əməyi keçən hər kəsə, eləcə də FIA əməkdaşlarına və könüllülərə minnətdarlıq ifadə edilib.

FIA həftəsi çərçivəsində paytaxtımızda bir araya gələn dünyanın müxtəlif ölkələrinin avtomobil təşkilatları, avtomobil idmanının görkəmli simaları, ümumilikdə 128 ölkənin nümayəndəsi, 189 klubun təmsilçisi, həmçinin onlayn şəkildə tədbirə qoşulan iştirakçılar dekabrın 5-dən fərqli formatlarda avtomobil idmanı və sənayesi sahəsində müxtəlif mövzuları müzakirə ediblər.

Bakı müzakirələrinin səmərəsindən danışan Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Mohammed ben Sulayem bu cür mötəbər tədbirin FIA-nın işinə töhfə verəcəyini bildirib.

Müzakirələr zamanı səsvermələrin nəticəsi olaraq Baş Assambleyanın 2024-cü ilin iyunun 14-də keçiriləcək iclasının Özbəkistanın Səmərqənd şəhərində, gələn il dekabrın 13-dəki iclasının isə Ruandanın Kiqali şəhərində təşkil edilməsi təsdiqlənib. FIA Baş Assambleyasının yekun iclasının sonunda FIA ailəsi Bakıdakı tədbirləri tarixi yaddaşa köçürəcək xatirə şəkli çəkdirib.

Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Mohammed ben Sulayemə üzərində Bakının rəmzləri sayılan İçərişəhər, Heydər Əliyev Mərkəzi və Alov Qüllələrinin təsviri fonunda FIA loqosu olan xalça hədiyyə edilib.

Həmçinin Bakıda AAF tərəfindən məktəblilər arasında təşkil olunan yol hərəkəti təhlükəsizliyi ilə bağlı intellektual yarışın qalibləri mükafatlandırılıblar.

# "YAŞAT" Fondunun yaradılmasından 3 il ötür

Bu gün "YAŞAT" Fondunun yaradılmasından üç il keçir. "YAŞAT" Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə yaradılıb.




Fondun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

AZƏRTAC xəbər verir ki, fondun yaradılmasının 3 illiyi münasibətilə dekabrın 8-də mətbuat konfransı təşkil olunub. Fondun 3 illik fəaliyyətinə dair videoçarx nümayiş etdirilib. "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov hesabat xarakterli təqdimatla çıxış edib.

Təqdimatda "YAŞAT" Fondu tərəfindən müvafiq istiqamətlərdə şəhidlərimizin ailə üzvləri və yaralılarımız üçün həyata keçirilən dəstək tədbirləri, reallaşdırılan layihələrə dair statistik məlumatlar əks olunub.

Qeyd olunub ki, bu günədək fondun büdcəsindən 79 milyon 484 min 43 manat 94 qəpik vəsait xərclənib.

Fondun əməkdaşları 3 min 4 şəhidin ailə üzvləri, habelə 6 min 568 yaralı olmaqla ümumilikdə 17 min 861 şəxslə görüşüb, onların ehtiyaclarını qeydə alıblar (yashat.gov.az saytında). 14 min 785 şəxsin 46 min 868 müraciəti icra üçün öhdəliyə götürülüb. Reallaşmış ödəniş sayı 43 min 69-dur.

Fonda toplanan vəsaitdən məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə 42 milyon 153 min 250 manat, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri üzrə 2 milyon 424 min 635 manat 3 qəpik, istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə 7 milyon 11 min 408 manat 82 qəpik, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üzrə 27 milyon 394 min 750 manat 9 qəpik xərclənib.

Məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 5 min 536 , itkin ailə üzvlərinin 7 və yaralıların 7 min 33 müraciəti olmaqla, ümumilikdə 12 min 576 müraciət təmin edilib.

Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 532 və yaralıların 171 müraciəti olmaqla, ümumilikdə 703 müraciət təmin olunub. Fondun təşəbbüsü ilə təhsilhaqqı üzrə təhsil müəssisələri tərəfindən 495 min 845 manat 99 qəpik vəsait qarşılanıb. Təhsilhaqqı üzrə 588 müraciət fond tərəfindən, 115 müraciət isə fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb (orta və ali təhsil müəssisələri və təlim-tədris mərkəzləri).

Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 16 min 406, itkin ailə üzvlərinin 6 və yaralıların 11 min 30 müraciəti olmaqla, ümumilikdə 27 min 442 müraciət təmin edilib. Ümumilikdə 185 şəxs müalicə edilməsi məqsədilə Türkiyə Respublikasına göndərilmiş, onlardan 178-si ağır yaralı, 7-si isə şəhid ailəsi üzvüdür. Müalicə alanlardan 160-ı ölkəyə geri qayıdıb. Hazırda 5 ağır yaralının müalicəsi Türkiyədə davam edir.

İstehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə şəhid ailə üzvlərinin 918, itkin ailə üzvlərinin 3 və yaralıların 1 379 müraciəti olmaqla, ümumilikdə 2 min 300 müraciət təmin edilib. Əlavə olaraq fondun təşəbbüsü ilə borc öhdəliyinin qarşılanması üzrə müəssisələr tərəfindən 126 min 392 manat 73 qəpik borc ləğv edilib.

E.Hüseynov, həmçinin fond tərəfindən həyata keçirilən layihələr barədə də məlumat verib.

"YAŞAT" Fondunun hesabatları və xərclənən vəsaitlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının Hesabatlar **(https://yashat.gov.az/report/tableau)** bölməsindən əldə etmək mümkündür.

# Moskvada Azərbaycan və Rusiya Baş nazirlərinin müavinlərinin görüşü keçirilib

Moskvada Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçukun görüşü olub.

AZƏRTAC RF Hökumətinin Mətbuat xidmətinin məlumatına istinadla xəbər verir ki, tərəflər Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının işinin gündəliyinə daxil olan ikitərəfli ticari-iqtisadi əməkdaşlığın aktual məsələlərini nəzərdən keçiriblər.

Hökumətlərarası Komissiyanın həmsədrləri ikitərəfli əməkdaşlığın səmərəliliyini təsdiqləyən ticarət inkişafının müsbət dinamikasını vurğulayıblar. Görüşdə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsinin artımının 2023-cü ilin yanvar-oktyabr aylarında 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz təşkil etdiyi qeyd olunub.

Tərəflər Rusiya və Azərbaycanın münasibətlərin bütün istiqamətlər üzrə möhkəmlənməsinə yönələn konstruktiv dialoqun davam etdirilməsinə hazır olduqlarını təsdiqləyiblər.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

### QƏRAR № 7/15

### Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179.2-ci maddəsini rəhbər tutaraq, "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 dekabr tarixli 4193 nömrəli Sərəncamının 2-ci hissəsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 8.1-ci, 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 179.2-ci maddələrinə əsasən **qərara alır:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | Məzahir Pənahov |
| **Katib** | Arifə Muxtarova |
| **Katib** | Mikayıl Rəhimov |

*08.12.2023*

### QƏRAR № 7/16

### "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Bu seçkilərin keçirilməsi üçün Azərbaycan Respublikasının seçki qanunvericiliyində nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə seçki subyektləri tərəfindən ardıcıl və keyfiyyətlə icra olunması, onlara metodiki yardım göstərilməsi və seçki prosesindəki fəaliyyətlərinin səmərəliliyinin artırılması məqsədilə əsas hərəkət və tədbirlərin yerinə yetirilmə ardıcıllığını, müddətlərini və subyektlərin əhatə dairəsini müəyyən edən Təqvim planının təsdiq edilməsi zəruridir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.3-cü, 28.2-ci, 28.4-cü, 177-203-cü, 207-ci və 208-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı" təsdiq edilsin.
2. Təqvim planı dərc edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | Məzahir Pənahov |
| **Katib** | Arifə Muxtarova |
| **Katib** | Mikayıl Rəhimov |

*08.12.2023*

### QƏRAR № 7/17

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun yaradılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-1.1-ci maddəsinə görə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində 9 nəfərdən, dairə seçki komissiyasının nəzdində isə 3 nəfərdən ibarət müvafiq ekspert qrupları yaradılır.

Növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri dövründə seçki hüququnun pozulması ilə əlaqədar seçki komissiyalarına daxil olmuş şikayət və müraciətlərin araşdırılmasının təmin edilməsi məqsədi ilə Mərkəzi Seçki Komissiyasının, həmçinin seçki dairələri dairə seçki komissiyalarının nəzdində Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada ekspert qrupları yaradılmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 112-1.1-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərində Mərkəzi Seçki Komissiyasının nəzdində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədilə aşağıdakı tərkibdə ekspert qrupu yaradılsın:

| | |
|---|---|
| Ramiz İbrahimov | - Mərkəzi Seçki Komissiyasının üzvü; |
| Fuad Cavadov | - Mərkəzi Seçki Komissiyasının üzvü; |
| Qabil Orucov | - Mərkəzi Seçki Komissiyasının üzvü; |
| Bəxşeyiş Əsgərov | - Mərkəzi Seçki Komissiyasının üzvü; |
| Tofiq Həsənov | - Mərkəzi Seçki Komissiyasının üzvü; |
| İlkin Şahbazov | - Mərkəzi Seçki Komissiyasının üzvü; |
| Nailə Əsgərova | - Mərkəzi Seçki Komissiyasının üzvü; |
| İlqar Əlizadə | - Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri; |
| Rafiq Abbasov | - Mərkəzi Seçki Komissiyası Katibliyi Hüquq şöbəsinin müdiri. |

2. Dairə seçki komissiyalarının nəzdində Seçki Məcəlləsinə uyğun olaraq 3 nəfərdən ibarət tərkibdə ekspert qrupunun yaradılması seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | Məzahir Pənahov |
| **Katib** | Arifə Muxtarova |
| **Katib** | Mikayıl Rəhimov |

*08.12.2023*

# Azərbaycan-Türkiyə HHQ nümayəndələri arasında qərargah danışıqları keçirilib

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında 2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına əsasən, hər iki qardaş ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndələri arasında 14-cü Qərargah danışıqları keçirilib.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ankara şəhərində keçirilən görüşdə Azərbaycan və Türkiyə HHQ arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub. Qərargah danışıqları zamanı hər iki ölkənin hərbi qulluqçularının peşəkarlığının daha da artırılması məqsədilə qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti qeyd edilib, həmçinin müxtəlif məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Plana uyğun olaraq Azərbaycan nümayəndə heyəti Türkiyə HHQ-nin hərbi hissələrini və hərbi təhsil müəssisələrini ziyarət edib.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



## Prezident seçkilərinin nəticəsini Şuşada və Xankəndidə dalğalanan Azərbaycan bayrağı müəyyənləşdirib!

**Azərbaycan dövləti və xalqı növbəti seçim qarşısındadır.**

**İki ay sonra sayca 9-cu prezident seçkisində vətəndaşlarımız ən layiqli namizədə səs verərək Azərbaycanın taleyini, müqəddəratını 7 il müddətinə ona həvalə edəcəklər.**

Bu seçimin nəticəsi indidən məlumdur!

*Seçkinin nəticəsini Tarixin Ən Qüdrətli Azərbaycanının yeni reallığı müəyyən edib!*

*Seçkinin nəticəsini Böyük Tarixi Zəfər, Şuşada və Xankəndidə dalğalanan Azərbaycan bayrağı həll edib!*

Bu tarixi nailiyyətlərin müəllifi cənab İlham Əliyevə olan ümummilli inam əvvəlki seçkilərin etimad göstəricilərindən daha yüksəkdir!

**Xalqımız üçün İlham Əliyev qətiyyətli Prezident, qurucu Rəhbər, qlobal nüfuzlu Lider olmaqla yanaşı, həm də 5 əsrdən sonra qazanılan ən böyük hərbi zəfərin müəllifidir!**

* İki əsrlik münaqişəni, 30 illik müharibəni qələbə ilə bitirən, dünya ermənilíyinin başını əzən Xilaskardır!

* Xalqımızın əsrlər boyu məruz qaldığı amansız soyqırımların qisasını döyüş meydanında alan yenilməz Sərkərdədir!

* Əbədi Zəfərin Müzəffər Ali Baş Komandanıdır!

* Müstəqillik tarixində Qarabağ və Şərqi Zəngəzurda ilk seçkiləri təmin edəcək, nəhayət ki, bütün Azərbaycanın seçkilərdə iştirakını gerçəkləşdirəcək qüdrətli Liderdir!

**Bu seçkilər xalqının öz Rəhbərinə yalnız etimadını bildirmək aksiyası yox, daha çox məhz əbədi minnətdarlığını, müqəddəs borcunu, səmimi sevgisini və bitməyən rəğbətini bir daha bəyan etmək üçün böyük fürsətdir!**

❖ ❖ ❖

Seçkilərə yenicə start verilib, seçki kampaniyası hələ rəsmən başlamayıb. Qarşıdakı müddətdə proseslə bağlı çox araşdırmalar aparılacaq, rəylər, mülahizələr irəli sürüləcək.

Ancaq fakt odur ki, Azərbaycandakı seçkilər indi yalnız Azərbaycana aid olan məsələ deyil!

**Azərbaycan artıq regional liderlikdən qlobal nüfuz sahibinə çevrilən dövlətdir. Bu dövlətdə baş verən mühüm siyasi hadisələr də beynəlxalq əhəmiyyət kəsb edir, dünyanın diqqətini özünə cəmləyir.**

Bu diqqət isə heç də adi insanların marağına əsaslanmır. Tam əksinə, kiçiyindən böyüyünə qədər onlarla dövlətin müqəddəratına, enerji təhlükəsizliyinə, iqtisadi-ticarət əlaqələrinə, regional əməkdaşlığa birmənalı təsiri olan hadisədir.

*Azərbaycandakı seçkilərin nəticələri indidən hər kəsə məlumdur. Çünki xalqımızın mövqeyi, inamı, etimadı bəllidir.*

*Bu, dost ölkələri sevindirir, onların da özlərindəki rifahın, təhlükəsizliyin, inkişafın davamlılığına əminliyi artırır.*

Düşmənləri isə əlbəttə ki, məyus edir, Azərbaycan dövləti və xalqı ilə bağlı məkrli planlarının, bədxah niyyətlərinin qarşıdakı 7 il ərzində də reallaşmayacağını bir daha qətiləşdirir.

**Ancaq İlham Əliyevin qlobal liderlik nüfuzunun nəticəsidir ki, dostlarımızın sayı daha çoxdur.**

**AŞ PA-dan BMT Təhlükəsizlik Şurasına və Qoşulmama Hərəkatının sədrliyinədək şərəfli, məsuliyyətli missiya dünyanın Azərbaycana hörmət bəslədiyini təmin edib.**

İndi tam əsasla deyə bilərik ki, dünya Azərbaycana və onun liderinə hörmət edir!

❖ ❖ ❖

*Hörmət işlə qazanılır, sözlə, münasibətlə ifadə olunur.*

*Heç kəs özünü zorla başqasına sevdirə bilməz!*

Diplomatik etiketlə səmimi münasibət, daxildən gələn hörmət arasındakı fərq də dərhal görünür, hiss olunur.

Hədə-qorxu, təsir və təzyiq güzəşt, tabeçilik yarada bilir, amma hörmət yox!

Yalnız hörmət doğuran işlər görənlər, hörmətə layiq əməl sahibləri bu ali insani duyğu ilə mükafatlandırılırlar.

**Hörmət dərhal - ilk görüşdə və ilk dəfəyə qazanılmır.**

**Hörmət ardıcıl əməllər və atılan xeyirxah, gərəkli addımlar sayəsində zərrə-zərrə toplanır, üst-üstə yığılaraq münasibətə, ictimai rəyə çevrilir.**

❖ ❖ ❖

Sovet Azərbaycanı qırmızı imperiyanın tərkibinə daxil olan on beş müttəfiq respublikadan biri idi.

Ərazisi kiçik, əhalisi az, aqrar əyalət sayılırdı.

1941-1945-ci illər müharibəsində Bakı öz nefti ilə qələbəyə böyük töhfə versə də, "Qəhrəman şəhər" adına belə, layiq görülmədi, başqalarından fərqləndirilmədi.

Dayanmadan istismar olunan neft quyularında "qara qızıl" tükənsə də, sahəyə əlavə vəsait, sərmayə yönəldilmədi...

**Yalnız Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra Azərbaycana münasibət dəyişdi.**

Xalqda böyük inam və ruh yüksəkliyi yaradan, onun imkan və sərvətlərini səfərbərliyə alan Ümummilli Liderimiz Azərbaycanı yüksəltməyə, mərkəzlə dövrün tələblərinə uyğun münasibətlər qurmağa nail oldu.

*Azərbaycan məhsul istehsalını artırdıqca, ittifaq büdcəsinə daha çox töhfələr verdikcə, həm xalqın gəliri artır, güzəranı yaxşılaşır, həm də mərkəzi büdcədən respublikaya ayırmalar çoxalırdı.*

**Ulu Öndər Heydər Əliyev sovet Azərbaycanını SSRİ-nin ən hörmətli, öndə gedən respublikalarından biri səviyyəsinə qaldırmışdı.**

*Ötən əsrin 90-cı illərində isə Azərbaycanı bir dövlət kimi məhvolmadan xilas edərək onun müstəqilliyini əbədiliyə və dönməzliyə çevirsə də, əsas problemin həllinə ömür vəfa etməmişdi.*

Lakin bu missiyanın da uğurla yerinə yetirilməsinə dəyərli töhfəsini vermişdi:

**Ölkənin sürətli və davamlı inkişafını təmin edən siyasi kurs müəyyənləşdirmiş və ən layiqli siyasi varisini hazırlayaraq dövlətin gələcəyini ona tapşırmışdı!**

**İlham Əliyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan üçün etdiklərini yeni dövrün tələblərinə uyğun davam etdirməli və bununla etimadı doğrultmalı idi.**

*Ərazisinin 20 faizi işğal altında qalan, işsizlik və yoxsulluq səviyyəsi 40 faizi keçən, bir milyonadək qaçqını və məcburi köçkünü olan, iqtisadiyyatı və ordusu zəif dövlətə başçılıq etmək, onu arzuedilən hədəflərə çatdırmaq bir o qədər də asan məsələ deyildi.*

**Amma İlham Əliyev bunu bacardı!**

**Özü də nəinki bacardı, tarixinin ən qüdrətli Azərbaycanını yaratdı, yaşatdı və yeni zirvələrə ucaltdı!**

* Azərbaycanı yenilədi, müasirləşdirdi;

* Dünyaya müasir dəyərləri mənimsəmiş, demokratik prinsiplərə yiyələnmiş imicdə təqdim etdi;

* Milli maraqlara əsaslanan daxili və xarici siyasət yürütdü, heç bir təsirə və təzyiqə boyun əymədi;

* Beynəlxalq təşkilatlarla iş aparmaq nümunəsi yaratdı;

* Hücum diplomatiyası tətbiq etdi;

* Beynəlxalq qurumlara rəhbərliyi dövründə faydalı təşəbbüslərlə çıxış etdi, bir sıra yeniliklərə imza atdı;

* Qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, ikitərəfli maraqların təminini əsas tutan prinsiplər əsasında yaxın və uzaq dövlətlərlə mehriban münasibətlər qurdu, strateji əməkdaşlıq etdi;

* Yeni tipli ordu yaratdı, onun ən müasir silahlar, yeni strategiya və taktika ilə təmin edilməsinə nail oldu;

* Azərbaycanı "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin keçdiyi məkana, logistika mərkəzinə, Cənubi Qafqazın ən güclü dövlətinə, söz sahibinə çevirdi!

**Azərbaycanın dünyada qazandığı bugünkü hörmət və nüfuzunda, özünəməxsus imicində İlham Əliyev şəxsiyyəti, bir rəhbər kimi fərdi və fərqli xüsusiyyət və cəhətləri, möhkəm iradə və xarakteri də xüsusi rol oynamışdır!**

❖ ❖ ❖

*Qırmızı imperiyanın dağılması, Azərbaycanın müstəqillik yoluna qədəm qoyması dövründə xalqın həqiqi rəhbərindən ayrı düşməsi, SSRİ rəhbərliyinə ermənipərəst, bizə düşmən münasibəti bəsləyən M.Qorbaçovun gəlməsi və belə bir taleyüklü dövrdə ölkəyə maymaq, qorxaq, səriştəsiz və təcrübəsiz insanların başçılıq etməsi fəlakətlə nəticələndi.*

**AXC-Müsavat cütlüyünün iqtidarı dövründə "bəy"lərin gördükləri işlər, atdıqları addımlar əsl rüsvayçılıq nümunələri idi.**

*Dövlətdə mühüm postlar tutan "meydan qəhrəmanları" iqtidarda olduqları qısa müddətdə də özlərini elə meydanda olduqları kimi məsuliyyətsiz, bacarıqsız apardılar, diplomatiyadan və siyasətdən xəbərsizliklərini əyani şəkildə nümayiş etdirdilər.*

Onlar gah özgə ərazisinə - Yakutiyaya "bayraq sancmaq"dan danışır, gah olmayan "atom bombası" ilə hədə-qorxu gəlir, gah da səfirin başına güllə çaxacaqlarını söyləyirdilər. Müdafiə naziri postunda oturan xəyanətkar R.Qazıyev isə dediyini edə bilməsə, başına güllə çaxacağını bəyan edirdi.

**Bütün bu səriştəsizliklər, naşılıqlar müstəqil dövlət kimi dünya miqyasına çıxmaq ərəfəsində olan Azərbaycanı hörmətdən salırdı.**

Digər tərəfdən, torpaqlarının itirilməsi, beynəlxalq qurum və təşkilatlara, ATƏT-in Minsk qrupu həmsədrlərinə möhtac qalması, uzun illər boyu "sülh danışıqları" adı altında süründürməçiliyə salınması Azərbaycanın nüfuzuna ciddi ziyan gətirirdi.

❖ ❖ ❖

**Ulu Öndər Heydər Əliyevin sona çatdıra bilmədiyi işləri uğurla yerinə yetirmək üçün cənab İlham Əliyev uzun illər boyu durmadan, yorulmadan çalışdı, həlli mümkün görünməyən problemlərin belə öhdəsindən məharətlə gəldi!**

*Yüksək xarizması, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilməsi, peşəkar diplomat məharəti, Vətənə sonsuz məhəbbəti və yüksək məsuliyyət hissi ilə çalışması, ən əsası, zamanında uzaqgörən və dəqiqliklə hesablanmış addımlar atması sayəsində qısa müddətdə möhtəşəm uğurlara imza atdı!*

**Prezident İlham Əliyev qeyri-daimi üzv kimi BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrliyi zamanı, habelə Qoşulmama Hərəkatına, TDT-yə, İƏT-ə rəhbərliyi dövrlərində bu ali qurumlarda qaldırdığı məsələlərə, irəli sürdüyü təşəbbüslərə, islahatlarla bağlı söylədiyi fikirlərə, inkişaf etməkdə olan ölkələrin maraqlarını qətiyyətlə qoruduğuna, dünyadakı ədalətsizlikləri cəsarətlə tənqid və ifşa etdiyinə görə böyük hörmət və nüfuz qazandı.**

*Beynəlxalq qurum və təşkilatlarda, nüfuzlu təşkilatların zirvə toplantılarında, dünya dövlətlərinin liderləri ilə görüşlərində söylədiyi fikirlər, nümayiş etdirdiyi yüksək mədəniyyət və diplomatik məharət, səmimi və mehriban davranış onu fərqləndirdi, sevdirdi.*

❖ ❖ ❖

**Azərbaycanı və onun Prezidenti İlham Əliyevi dünyada ən yüksək hörmət və ehtiram sahibinə çevirən hadisə isə 44 günlük müharibədə qazanılan möhtəşəm Zəfər, 30 il erməni işğalında qalan torpaqların qısa bir müddətdə azad edilməsi, ərazi bütövlüyünün bərpası oldu!**

*Dünya gördü ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev necə bir möhtəşəm ordu yaradıb, onu hansı müasir silahlarla silahlandırıb, habelə XXI əsrin ən yeni müharibəsini aparmaq üçün hansı taktika və strategiya ilə təmin edib.*

Dünya həm də keçilməz cığırlardan keçərək, sıldırımlı qayalara dırmaşaraq Şuşanı yüngül silahla, əlbəyaxa döyüşlə alan Azərbaycan əsgər və zabitlərinin, xüsusi təyinatlılarının hünərinə heyran qaldı!

**İlham Əliyev ləyaqətli müharibə apardı - mülki əhali hədəfə alınmadı, qadın, qoca, uşaq zərər görmədi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu çox yüksək peşəkarlıqla düşmən ordusunu darmadağın etdi, lokal tipli antiterror tədbirləri keçirərək dövlətin suverenliyinə və konstitusiya əsaslarının təmininə nail oldu!**

❖ ❖ ❖

Az müddətdə qazanılan hörmət və nüfuzun daha bir səbəbi:

*- Azərbaycan heç zaman heç kəsin qapısını döyüb ondan kömək və borc istəməyib, hər bir hədəfinə öz gücü ilə çatıb!*

*- Azərbaycan heç zaman milli maraqlarına xələl gətirməyib, başqaları kimi özünə ağa axtarmayıb!*

**- Müzəffər Ali Baş Komandan İlham Əliyev daim sözünün sahibi olub, dediyinə əməl edib!**

**- Bu gün də bütün dünya onu belə mərd, alicənab, əyilməz və vətənpərvər, müdrik şəxsiyyət kimi tanıyır.**

*Məğrur, müstəqil, qürurlu insanlar və dövlətlər daim sevilir, hörmət və ehtiram ünvanına çevrilirlər!*

❖ ❖ ❖

* Azərbaycan daim dostlarına və əməkdaşlıq qurduğu ölkələrə xeyir verən təşəbbüslərlə çıxış edir!

* Azərbaycan hamıya fayda gətirən yeni əməkdaşlıq qurumları yaradır, əvvəlki qurum və təşkilatlara isə yeni ruh, yeni nəfəs verir!

* Azərbaycan ən yüksəksəviyyəli beynəlxalq məclislərin arzuolunan dəvətlilərindən sayılır, onun Prezidentinin çıxışları böyük maraqla dinlənilir!

Biz bunu dünya liderlərinin söylədikləri fikirlərdə də aydın görürük.

Biz bunu Azərbaycan Prezidentinin ayrı-ayrı ölkələrə səfəri zamanı necə qarşılanmasından da görürük.

*Bəli, Azərbaycanla əlaqə quran, onunla əməkdaşlıq edən hər bir ölkə, siyasi lider ölkəmizə hörmətlə yanaşır, onun işini də, əməlini də, mövqeyini də yüksək qiymətləndirir!*

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı müasir Azərbaycan bax belə dövlətdir!**

Bütün bunlara möhtərəm Prezidentin düşünülmüş, müdrik və uzaqgörən siyasəti və əməli fəaliyyəti nəticəsində nail olunub.

**İlham Əliyev dünyanın ehtiram göstərdiyi, Azərbaycan xalqının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lideri kimi tanıdığı, qəbul etdiyi, etimad və etibar ünvanı saydığı Liderdir!**

Bu baxımdan tam əminliklə deyə bilərik ki, 7 fevralda keçiriləcək növbədənkənar Prezident seçkilərinin bütün dünyaya sülh, təhlükəsizlik, əməkdaşlıq, rifah və inkişaf təsiri olacaq!

*Seçkilərin nəticəsi yalnız Azərbaycana deyil, Azərbaycanın bütün dostlarına müsbət töhfələr verəcək!*

❖ ❖ ❖

Dünyada sözü, izi, yeri və sanbalı olan Azərbaycanla hər bir vətəndaşımız haqlı olaraq fəxr edir!

**Ulu Öndər böyük uzaqgörənliklə söyləmişdi: "Azərbaycan dünyaya bir Günəş kimi doğacaq!"**

Doğrudur, vəfasız ömür onun Günəş kimi doğan Azərbaycanı görməsinə imkan vermədi.

Amma bu uzaqgörənlik də həyata keçdi!

*Artıq Azərbaycan dünyaya Günəş kimi doğur!*

*Tanınır, sayılır, seçilir və sevilir!*

*Cavan, ağsaqqal, güclü bir ölkə kimi!*

**Müasir Azərbaycan həm də İlham Əliyevin Azərbaycanı sayılır!**

**Çünki onu bu yüksəkliyə Prezident İlham Əliyev ucaldıb.**

Qarşıya qoyulan bütün hədəflərə çatmışıq!

*Əsl gücümüz iqtidarla xalqın birliyində, Azərbaycan xalqının yeganə, hamı tərəfindən qəbul olunan liderinə sonsuz məhəbbət və dəstəyindədir!*

**Xalq sınanmış oğlu İlham Əliyevi sevir!**

**İlham Əliyev isə daim xalqın yanında, onun müstəqilliyi, rifahı, xoşbəxt gələcəyi uğrunda mübarizədədir!**

Onun növbəti qələbəsi isə hər birimizin qələbəsi olacaq!

**Bəxtiyar SADIQOV**

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 440 **QƏRAR** Bakı şəhəri, 7 dekabr 2023-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 23 iyun tarixli 924-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2214 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 227; 2011, № 5, maddə 449; 2018, № 11, maddə 2448; 2021, № 10, maddə 1193; 2023, № 9, maddə 1343) ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. İşəgötürən dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə iş yerlərinin attestasiyasının aparılması nəticələrinə dair bu Qaydaların 4.2-ci və 5.2-ci bəndlərində nəzərdə tutulmuş sənədlərin surətinin 10 (on) iş günü müddətində məlumat üçün Dövlət Əmək Müfəttişliyi Xidmətinə təqdim olunmasını təmin etməlidir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 441 **QƏRAR** Bakı şəhəri, 7 dekabr 2023-cü il

### Azərbaycan Dövlət Aqrar Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Dövlət Aqrar Universiteti Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Aqrar Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan Dövlət Aqrar Universitetinin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Dövlət Aqrar Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 dekabr tarixli 441 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Dövlət Aqrar Universitetinin Nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində publik hüquqi şəxs statusuna malik Azərbaycan Dövlət Aqrar Universiteti (bundan sonra - ADAU) Azərbaycan Dövlət Aqrar Universitetinin çevrilmə yolu ilə yenidən təşkili nəticəsində yaradılmışdır və onun hüquqi varisidir.

1.2. ADAU ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olub, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq səviyyələr üzrə ali təhsil, habelə orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirən, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan publik hüquqi şəxsdir.

1.3. ADAU öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, "Publik hüquqi şəxslər haqqında", "Təhsil haqqında", "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, Nazirliyin əmr və sərəncamlarını rəhbər tutur.

1.4. ADAU-nun müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, bank hesabı, üzərində Nazirliyin və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. ADAU "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu əldə edir. ADAU-nun hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

1.6. ADAU öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.7. Qanuna uyğun olaraq, ADAU-nun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. ADAU məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. ADAU "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, ADAU-nun elmi qurumları isə "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilir.

1.9. ADAU-da siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.10. ADAU Gəncə şəhəri, Atatürk prospekti, 450 ünvanında yerləşir.

**2. ADAU-nun fəaliyyət istiqamətləri**

2.1. ADAU-nun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş-profilli ali təhsilli mütəxəssislərin hazırlanması;

2.1.2. magistratura təhsil səviyyəsində ixtisaslaşmalar üzrə ayrı-ayrı ixtisas sahələrinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi;

2.1.3. doktorantura təhsil səviyyəsində yüksəkixtisaslı elmi kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi;

2.1.4. orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi;

2.1.5. elmin müxtəlif sahələri və istiqamətləri üzrə tədqiqatların aparılması.

**3. ADAU-nun vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, ADAU-nun vəzifələri aşağıdakılardır:

3.1.1. ali təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

3.1.2. dövlət təhsil standartlarına uyğun olaraq təhsilalanların zəruri biliyə və həyati bacarıqlara yiyələnməsini təmin etmək;

3.1.3. hər bir təhsilalanın intellektual, mədəni və mənəvi inkişafını təmin etmək və təhsilalma tələblərini ödəmək;

3.1.4. təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək və onun monitorinqini həyata keçirmək;

3.1.5. təlim-tərbiyə prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək;

3.1.6. ali təhsilin müvafiq səviyyələri üzrə yüksəkixtisaslı mütəxəssislər, elmi və elmi-pedaqoji kadrlar hazırlanmasını həyata keçirmək;

3.1.7. profilinə uyğun olaraq elmin müxtəlif sahələri və istiqamətləri üzrə fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparmaq və elmi-metodiki sənədlər hazırlamaq;

3.1.8. dövlət təhsil standartlarına və ayrı-ayrı pillələr və ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun tədris sənədlərini və tədris prosesinin təşkilinə aid digər sənədləri səlahiyyətləri çərçivəsində hazırlamaq;

3.1.9. elmi, ixtisaslaşdırılmış və dissertasiya şuralarının işini təşkil etmək və həyata keçirmək;

3.1.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı ADAU-nun beynəlxalq fəaliyyətini və xarici əlaqələrini təmin etmək;

3.1.11. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.12. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq iaşə xidmətini, tibbi və psixoloji xidməti təşkil etmək, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə psixoloji yardım göstərmək;

3.1.13. hər bir təhsilalanın, valideynin və ya digər qanuni nümayəndənin ADAU-nun Nizamnaməsi və dövlət akkreditasiyası haqqında sənədlə tanış olmasına şərait yaratmaq;

3.1.14. ADAU-nun əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.15. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, aidiyyəti üzrə məlumat vermək;

3.1.16. ADAU-nun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.17. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.18. ADAU-ya ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.19. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.20. ADAU-nun informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.21. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə və "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə qoşulmaq;

3.1.22. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.23. maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində işlər görmək;

3.1.24. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.25. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil haqqında dövlət sənədi, habelə müvafiq arayış vermək;

3.1.26. "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarından irəli gələn, habelə bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün ADAU-nun aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq struktur bölmələrində Nazirliyin razılığı ilə orta ixtisas təhsilini həyata keçirmək;

3.2.2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq vətəndaşların əlavə təhsil almasını təşkil etmək;

3.2.3. xarici dövlətlərin ali təhsil müəssisələri ilə bağlanılmış ikitərəfli və çoxtərəfli müqavilələrə uyğun olaraq, beynəlxalq təhsil proqramlarını həyata keçirmək;

3.2.4."Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının və xarici dövlətlərin ərazisində filiallar (Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla), idarə və nümayəndəliklər açmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək, habelə təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədilə ictimai təşkilatlarla təhsil birlikləri, assosiasiyaları və ittifaqları yaratmaq, eləcə də belə təşkilatlara üzv olmaq;

3.2.5. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq, xarici ölkələrin ali təhsil müəssisələri, təşkilatları ilə, beynəlxalq qurumlarla və fondlarla əlaqələr yaratmaq, əməkdaşlıq haqqında müqavilələr bağlamaq və qarşılıqlı əməkdaşlığın digər formalarını həyata keçirmək;

3.2.6. elmi əsərlər, dərslik, dərs vəsaiti, tədris və tədris-metodik ədəbiyyat hazırlamaq və nəşr etmək;

3.2.7. "Təhsil haqqında" və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

3.2.8. təhsilalanlar və əməkdaşlar üçün idman, sağlamlıq, iaşə və məişət xidmətləri təşkil etmək və göstərmək;

3.2.9. fəxri professor (doktor) adı vermək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.11. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.12. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.13. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.14. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.15. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.16. "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarından, habelə bu Nizamnamədən irəli gələn digər hüquqları həyata keçirmək.

3.3. ADAU-da təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir.

3.4. Ali təhsil proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ali təhsil pilləsi üzrə təsdiq edilən dövlət təhsil standartı ilə müəyyənləşdirir.

3.5. ADAU-da tədris ali təhsil pilləsi üzrə təhsilin məzmununu və mənimsənilməsi qaydalarını müəyyən edən və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi təhsil proqramları ilə həyata keçirilir.

3.6. ADAU-da təlim-tərbiyə prosesinin təşkili ilə bağlı digər məsələlər "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına, həmçinin həmin qanunlardan irəli gələrək Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydalara uyğun həyata keçirilir.

**4. ADAU-nun idarə olunması**

4.1. ADAU aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsas tutulmaqla, "Təhsil haqqında", "Elm haqqında", "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının qanunlarına və bu Nizamnaməyə uyğun olaraq idarə edilir.

4.2. ADAU-nun təsisçisinin səlahiyyətləri aşağıdakılardır:

4.2.1. ADAU-nun nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.2.2. idarəetmə orqanlarının yaradılması;

4.2.3. idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.4. inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiqi;

4.2.5. ADAU-nun strukturunun təsdiqi;

4.2.6. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

4.2.7. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), habelə ADAU-ya aidiyyəti olan şəxslərlə əqdin (əqdin dəyəri aktivlərin 5 faiz və daha çox hissəsini təşkil etdikdə) bağlanılmasına razılıq verilməsi;

4.2.8. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2.9. ADAU-nun yenidən təşkil və ləğv edilməsi.

4.3. Bu Nizamnamədə dəyişikliklər ADAU-nun Elmi Şurasında müzakirə olunur və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

4.4. ADAU-ya münasibətdə təsisçinin səlahiyyətlərini (ADAU-nun rektorunun vəzifəyə təyin və ya vəzifədən azad edilməsi, həmçinin bu Nizamnamənin 4.2.1-ci, 4.2.2-ci və 4.2.9-cu yarımbəndlərində nəzərdə tutulmuş səlahiyyətlər istisna olmaqla) Nazirlik həyata keçirir.

4.5. ADAU-nun ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası bu Nizamnamə və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə ilə müəyyən olunur.

4.6. ADAU-nun strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasıdır. Himayəçilər Şurasının tərkibini azı 3 (üç) nəfər olmaqla Nazirlik təsdiq edir. Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası bu Nizamnamə və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə ilə müəyyən edilir.

4.7. ADAU-da tədris-metodiki işlərin həyata keçirilməsi üçün Himayəçilər Şurası tərəfindən Elmi-metodiki Şura yaradılır. Elmi-metodiki Şuranın yaradılması qaydası və səlahiyyətləri Himayəçilər Şurasının təsdiq etdiyi əsasnamə ilə müəyyən olunur.

4.8. ADAU-nun cari fəaliyyətinə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi rektor rəhbərlik edir.

4.9. Rektor ADAU-nun mənafeləri üçün vəzifələrini yerinə yetirərkən vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etməyə, ADAU-nun maraqlarına sadiq olmağa, onun maraqlarını öz maraqlarından üstün tutmağa, ehtiyatlı olmağa, qərarların qəbulu zamanı ədalətli və qərəzsiz olmağa, habelə adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməyə borcludur.

4.10. Rektorun fəaliyyətinin təşkili qaydası bu Nizamnamə və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə ilə müəyyən edilir.

4.11. Rektor:

4.11.1. ADAU-nun cari fəaliyyətinə rəhbərlik edir və bu fəaliyyət üçün şəxsən məsuliyyət daşıyır;

4.11.2. ADAU-nu dövlət orqanları (qurumları), yerli özünüidarə-etmə orqanları, beynəlxalq qurumlarla və digər hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil edir;

4.11.3. ADAU-nun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.4. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər verir və sənədlər (o cümlədən, ADAU-nun maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim edir;

4.11.5. müəyyən edilmiş struktur daxilində əməyin ödənişi fondunu, işçilərin say həddini və ştat cədvəlini, Nazirliklə razılaşdırılmaqla xərclər smetasını, həmçinin daxili intizam qaydalarını və işçilərin vəzifə təlimatlarını təsdiq edir;

4.11.6. ADAU-nun işçilərinin (prorektorlar və daxili audit bölməsinin əməkdaşları istisna olmaqla), o cümlədən Nazirliklə razılaşdırmaqla onun idarə, filial, nümayəndəlik və tabeliyindəki digər qurumların, habelə struktur bölmə rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə dair qərarlar qəbul edir;

4.11.7. ADAU-nun fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və nəzarəti həyata keçirir;

4.11.8. Elmi Şuranın qərarlarını təsdiq edir, onun və digər idarəetmə orqanlarının qərarlarını həyata keçirir;

4.11.9. özünün və ADAU-nun digər vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.10. Elmi Şura qarşısında elm və tədris məsələlərinə dair, Himayəçilər Şurası qarşısında ADAU-nun cari fəaliyyətinə dair hesabatlar verir;

4.11.11. ADAU-nun işçilərinə vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.12. ADAU-nun əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir, bu Nizamnamənin 3.1.18-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.11.13. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində ADAU-nun adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən, Nazirliyin razılığı ilə ADAU-nun xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqd (xüsusi əhəmiyyətli əqd) və aidiyyəti şəxslə dəyəri ADAU-nun aktivlərinin 5 (beş) faizini və daha çox, həmçinin 5 (beş) faizədək hissəsini təşkil edən əqd) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.14. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı komissiyalar və işçi qruplar yaradır;

4.11.15. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.16. kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.17. müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.11.18. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;

4.11.19. ADAU-nun cari fəaliyyəti ilə bağlı digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən məsələləri həll edir.

4.12. ADAU-nun 5 (beş) prorektoru vardır. Prorektorlar ADAU-nun rektorunun təqdimatı əsasında Nazirlik tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

4.13. Rektor olmadıqda, ADAU-nun fəaliyyətinə rəhbərliyi Nazirlik tərəfindən müəyyən edilən prorektor həyata keçirir.

4.14. ADAU təhsil kompleksi və kampus formasında fəaliyyət göstərir.

4.15. ADAU-da elmi-pedaqoji (professor-müəllim heyəti, elmi işçilər), mühəndis-texniki, inzibati, inzibati-təsərrüfat, tədris-köməkçi və digər heyətlər üzrə vəzifələr nəzərdə tutulur. Professor-müəllim heyəti, dekan və kafedra müdiri vəzifələrinin tutulması seçki, digər vəzifələrin tutulması isə təyinolunma yolu ilə həyata keçirilir və ADAU-nun rektorunun əmri ilə (prorektorun təyin edilməsi istisna olmaqla) rəsmiləşdirilir.

4.16. Təhsilalanların, təhsilverənlərin, ADAU-nun inzibati, inzibati-idarəetmə, inzibati-təsərrüfat və digər heyətinin hüquq və vəzifələri Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunları, bu Nizamnamə və ADAU-nun daxili intizam qaydaları ilə, eləcə də ADAU ilə əmək münasibətləri olan şəxslərə münasibətdə eyni zamanda Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri nəzərə alınmaqla bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

**5. ADAU-nun nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. ADAU-nun nizamnamə fondu 36.469.599 (otuz altı milyon dörd yüz altmış doqquz min beş yüz doxsan doqquz) manatdır.

5.2. ADAU-nun əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşır.

5.3. ADAU-nun balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətləri "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.4. ADAU ona verilmiş əmlakdan yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. ADAU-nun əmlakından təhsildənkənar məqsədlər üçün istifadə edilməsi qadağandır.

5.5. Bu Nizamnamənin 5.3-cü bəndi nəzərə alınmaqla, ADAU əmlakı üzərində sahiblik və istifadə hüquqlarını məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə Nazirlik ilə razılaşdırmaqla həyata keçirir.

5.6. ADAU mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. ADAU-nun əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti Nazirlik, yaxud onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

5.7. ADAU-nun maddi-texniki bazası və təhsil infrastrukturu Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq normativlərə uyğun olmalıdır.

5.8. ADAU "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş mənbələrdən maliyyələşdirilir.

5.9. ADAU Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq normativlərə uyğun maliyyələşdirilir.

5.10. ADAU bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

5.11. ADAU Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər. Bunun üçün ADAU Nazirliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yarada və ya onlarda iştirak edə bilər.

5.12. ADAU-nun bu Nizamnamənin 5.2-ci bəndində göstərilən mənbələrdən (büdcə vəsaiti istisna olmaqla) daxil olan vəsait hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

5.13. ADAU-nun fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər məqsədlərə yönəldilir.

5.14. ADAU fəaliyyətindən əldə etdiyi vəsaiti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na uyğun olaraq xərcləyir.

5.15. ADAU-da dövlət hesabına göstərilən xidmətlərin dəyəri Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi maliyyə normativləri ilə müəyyən edilir. ADAU-nun ödənişli təhsil xidmətlərinin və bu Nizamnamənin 5.11-ci bəndində nəzərdə tutulmuş fəaliyyətlə bağlı müvafiq məhsulların (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

**6. ADAU-nun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. ADAU-nun fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada ADAU-nun idarəetmə orqanları həyata keçirirlər.

6.2. Nazirlik ADAU-da plan üzrə və ya plandankənar yoxlamalar həyata keçirə bilər.

6.3. ADAU-nun fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

6.4. ADAU-nun fəaliyyətinə nəzarətin digər formaları "Təhsil haqqında" və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilir.

6.5. ADAU idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

6.6. ADAU-nun fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün Himayəçilər Şurası kənar auditor təyin edir və onun audit hesabatını qəbul edir.

6.7. ADAU-da daxili audit bölməsinin fəaliyyətinə Himayəçilər Şurası nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir.

**7. ADAU-da uçot və hesabat**

7.1. ADAU "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. ADAU "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

**8. ADAU-nun yenidən təşkili və ləğv edilməsi**

ADAU-nun yenidən təşkilini və ləğv edilməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

# Prezidentə inam və etimad sonsuzdur

2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçiriləcək. Ötən gün Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.



Milli Məclisin deputatı Elman Məmmədov qəzetimizə açıqlamasında bildirib ki, o, "bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır" deyən İlham Əliyevin bu seçkilərdə də qələbə qazanacağına inanır: "Mən İkinci Qarabağ savaşında zəfər çalan, torpaqlarımızı işğaldan azad edən, eləcə də müstəqilliyimizin qarantı olan ordu quruculuğunun möhkəmləndirilməsi ilə bağlı davamlı olaraq mühüm addımlar atan və iqtisadi müstəqilliyimizi təmin edən İlham Əliyevin seçkilərdə qalib gəlməsini istəyirəm. Həm də ona görə İlham Əliyevi dəstəkləyirəm ki, onun vahid dövlətçilik siyasəti ölkəmizin siyasi-iqtisadi, mədəni, sosial, hərbi və idman sahələrində dinamik inkişafını təmin edir. Üstəlik, uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq arenada tutduğu mövqeyi gündən-günə möhkəmlənir".

Deputat onu da qeyd edib ki, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi də elə İlham Əliyevin adı ilə bağlıdır: "Bu, Vətən müharibəsində, eləcə də cari il sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində dövlət başçısının liderliyi sayəsində qazandığımız zəfərlərin nəticəsidir. Biz ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının regionda və ölkəmizdə yeni reallıqlar yaratdığının şahidiyik. Bu baxımdan bütün ölkə ərazisini əhatə edəcək prezident seçkiləri həm də ərazi bütövlüyümüzün və suverenliyimizin təsdiqi kimi başa düşülməlidir".

Elman Məmmədov vurğulayıb ki, 20 ildə xalqa verdiyi hər bir vədini əməlləri ilə də təsdiqləyən Prezident İlham Əliyevə inam sonsuzdur. Dövlət başçısına olan etimadın elə başlıca səbəblərindən biri də onun sözü ilə əməllərinin dərin vəhdət təşkil etməsidir. Həm də nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev torpaqlarımızı işğaldan azad edərək ölkəsinin suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən liderdir. Şübhəsiz ki, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər dövlətçilik tariximizin ən parlaq dövrüdür.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Növbəti prezident seçkisi bütün ölkə ərazisini əhatə edəcək

"Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, 2024-cü il fevralın 7-də ölkədə növbədənkənar prezident seçkiləri keçiriləcək. Bu, müstəqil Azərbaycan tarixində ilk belə seçki olacaq ki, işğaldan azad olunmuş şəhər və kəndlərimiz də daxil olmaqla, bütün ölkə ərazisini əhatə edəcək. Həmçinin bu seçkiləri zəfər seçkisi kimi də qiymətləndirmək olar. Çünki budəfəki prezident seçkiləri illərlə həsrətini çəkdiyimiz əziz Şuşada, Xankəndidə, Laçında, Xocalıda, Zəngilanda, Cəbrayılda, Kəlbəcərdə, Füzulidə və digər rayonlarda - Azərbaycan bayrağının şərəflə dalğalandığı bütün ərazilərdə keçiriləcək".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş təcrübədir. Sadəcə olaraq, seçkilər növbədənkənar keçirildiyi halda vətəndaşlar öz siyasi iradələrini vaxtından əvvəl ifadə edirlər.

Arzu Nağıyevin sözlərinə görə, Prezident İlham Əliyev qalib lider kimi xalqımızın etimadını qazanıb. Bu gün hər bir azərbaycanlının qürurla səsləndirdiyi "Qarabağ Azərbaycandır!" şüarı ölkənin bütün bölgələrində quruculuq işləri ilə müşayiət olunur. Demək olar, bütün sahələrdə davamlı islahatlar aparılır. Bu gün Azərbaycan xalqının öz Prezidentinə dərin inamı və ehtiramı var. İndiyə qədər dediyi sözlərinin üstündə duran Ali Baş Komandan ölkəmizin siyasi və iqtisadi müstəqilliyini təmin edib.

Deputat qeyd edib ki, bizim siyasi sistemi gücləndirməkdə israrlı olmağımız qələbələrimizi həzm edə bilməyən qüvvələr üçün əsl dərsdir: "Ölkədə bu istiqamətdə ciddi addımlar atılır, seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün lazımi şərait yaradılır. Nəzərə almaq lazımdır ki, bu seçkilərdə ölkədə siyasi partiyaların qeydiyyata alınma prosesi tamamlanıb. Elə bu yanaşmanın özü ölkədə rəqabət mühitinin təmin edilməsini göstərir".

Arzu Nağıyev deyib ki, növbədənkənar prezident seçkilərində hər bir namizədə Seçki Məcəlləsinə əsasən bərabər imkanlar veriləcək. Məcəlləyə uyğun olaraq, bütün namizədlər təbliğat və təşviqat prosesində mediadan bərabər şəkildə istifadə edə biləcəklər. Ümumiyyətlə, əksər ölkələrdə 2024-cü ilin "seçki ili"nə çevrilməsi həm də qlobal proseslərdən qaynaqlanır. Ona görə də Prezident tərəfindən belə bir sərəncamın imzalanması təqdirəlayiq hal kimi dəyərləndirilməlidir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Qətiyyət və mərhəmət

## Sülhə gedən yolu İrəvan, Brüssel, Vaşinqton, Paris deyil, Bakı müəyyən edir

Azərbaycanın zəfəri onilliklərdir yaşanan gərginliyə, münaqişəyə, xalqımızın ağrı-acılarına son qoyub. 30 ilə yaxın müddətdə aparılan danışıqlar nəticəsində vasitəçilərin nail ola bilmədikləri və ya istəmədikləri sülhə yol açılıb.

Torpaqlarını işğaldan qurtararaq, suverenliyini təmin edərək tarixi ədaləti yoluna qoyan Azərbaycan, ümumilikdə regionda təhlükəsizlik, inkişaf vəd edən yeni çağ yaradıb...

Cəmi üç il əvvələ qədər mümkünsüz görünən hadisələr gerçəyə çevrilib, düşmən ölkələr olan Ermənistan ilə Azərbaycan artıq bu gün birgə açıqlama yayırlar, bir-birilərinə qarşı xoşməramlı addımlar atırlar...

Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlama yayması da buna bariz nümunədir.

Təkcə bu faktın özü göstərir ki, məhz Azərbaycanın humanizm, sülh naminə apardığı qətiyyətli siyasəti uğurlu bəhrəsini verir.

### Xoşməramlı addım

Beynəlxalq ictimaiyyətin də alqışladığı açıqlamada bəyan edilir ki, Azərbaycan və Ermənistan regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşürlər. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir.

Məlumat verilir ki, humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, Azərbaycan Respublikası 32 erməni hərbçini, Ermənistan Respublikası isə öz növbəsində 2 azərbaycanlı hərbçini azad edir.

Birgə açıqlamada o da vurğulanır ki, xoş niyyətin təzahürü olaraq, Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyinə öz namizədliyini geri götürərək Azərbaycanın namizədliyini dəstəkləyir. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir. "Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar", - deyə açıqlamada daha sonra bildirilir.

### Sülh prosesini Azərbaycan başlatdı

Ərazilərinin işğal altında olduğu 30 illik müddətdə münaqişənin sülh yolu ilə tənzimlənməsinin tərəfdarı olan Azərbaycan, 44 günlük Vətən müharibəsindən sonra Ermənistana təkmil sülh modeli təklif edib. Lakin İrəvanın Qərbdəki riyakar dəstəkçilərinə güvənərək ölkəmizə qarşı müxtəlif siyasi və hərbi təxribatlar törətməsi nəticəsində hələ də iki ölkə arasında sülhün əldə edilməsi mümkün olmayıb. 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü bütün öhdəliklərini yerinə yetirməyən Ermənistanın silahlı qüvvələrini Qarabağdan çıxarmaması Azərbaycanı lokal xarakterli antiterror tədbirləri həyata keçirməyə məcbur etdi. Azərbaycan bayrağını Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda, Suqovuşanda dalğalandıraraq suverenliyini tam bərpa etdi.

Azərbaycan nə 44 günlük müharibədə, nə də 23 saatlıq antiterror tədbirləri zamanı mülki əhalini və infrastrukturu hədəf almadı. Ölkəmizi könüllü tərk edən erməniəsilli sakinlərə hər cür şərait yaratdı, eyni zamanda da Qarabağda qalan ermənilərin reinteqrasiyası ilə bağlı əməli işlər həyata keçirdi. Onları təhlükəsiz və layiqli həyat şəraiti ilə təmin etdi.

Bütün bunlarla paralel olaraq, Bakı sülh istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirir.

Dekabrın 6-da Prezident İlham Əliyevin iştirakı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda dövlət başçısı bildirdi ki, məhz yenə də biz - Azərbaycan tərəfi bildirdik ki, sülh sazişi imzalamalıyıq. "Delimitasiya ilə bağlı komissiyalarımız olmalıdır" dedik. Ermənistan deyil, Brüssel deyil, Vaşinqton, Paris və ya Moskva deyil, bunu deyən biz idik. Proses məhz belə başladı: "Sonra gördük ki, heç nə baş vermir. Beləliklə, biz sülh sazişinin prinsiplərini işləyib hazırlamaq qərarına gəldik. Onları işləyib Ermənistana göndərdik. Sonra yenə sükut oldu və biz bunu ictimailəşdirdik. Beləliklə, biz o məşhur beş prinsipi açıqladıq ki, Ermənistan indi onları qəbul etməyə daha hazır görünür. Əgər üç il əvvəl onları qəbul etsəydilər və ya əsasən qəbul etsəydilər, antiterror tədbirlərinə ehtiyac qalmayacaqdı".

### Azərbaycan nümunəsi

Bəli, qalib lider İlham Əliyevin söylədiyi kimi, otuz il boyu işğala, dağıntılara, etnik təmizləməyə, soyqırımına məruz qalan və ərazisinin tamamilə dağıdılmasından əziyyət çəkən bir ölkə torpaqlarını beynəlxalq vasitəçilər olmadan məhz özü azad etdikdən dərhal sonra özü də sülh təklif edib.

Bütün bunlar həm də Ermənistanın deyil, Azərbaycanın sülh tərəfdarı olduğunu nümayiş etdirən əyani faktlardır.

Azərbaycan sülhə gedən yolu müharibə ilə təmin edib və ölkəmizin qazandığı parlaq zəfərlərin işığı onilliklərdir separatizmin zülmətə qərq etdiyi bölgəni də aydınlığa çıxarıb.

İndi münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq üçün tarixi fürsət yaranıb.

Bütün bu sadalananlar isə dünya üçün Azərbaycan nümunəsi, münaqişələrə, separatizmə necə son qoymağın, sülhü bərqərar etməyin misilsiz örnəyidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Seçkilərin favoriti İlham Əliyev olacaq

"Növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı sərəncam xalqımız tərəfindən böyük sevinc və məmnuniyyət hissi ilə qarşılanır. Bu seçkilər dövlətçilik tariximizin əlamətdar dövrünə təsadüf edir. Müstəqillik tariximizdə ərazi bütövlüyü və suverenliyi tam təmin edilmiş Azərbaycanın ilk dəfə bütün bölgələrində prezident seçkiləri keçiriləcək. Hər yerdə seçki məntəqələri qurulacaq, Azərbaycan xalqı öz siyasi iradəsini sərbəst və rahat şəkildə ifadə edəcək".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib. Komitə sədri bildirib ki, seçkilərin növbədənkənar və ya vaxtında keçirilməsinin heç bir fərqi yoxdur. Dünyada belə hallara mütəmadi olaraq rast gəlinir. Əsas odur ki, xalq fikrini, öz arzu və istəyini, mövqeyini rahat şəkildə ifadə edə bilsin.

Musa Quliyev söyləyib ki, budəfəki prezident seçkiləri Vətən müharibəsində zəfər qazandıqdan sonra keçirdiyimiz ilk seçkidir. Xatırlayırsınızsa, bundan əvvəlki prezident və parlament seçkiləri də növbədənkənar keçirilmişdi. Çünki biz həmin vaxt da tarixi hadisələrin astanasında idik. Məhz həmin seçkilərdən sonra Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad etdi və seçki dövründə ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Bu mənada, fevralın 7-nə təyin olunmuş seçkini zəfər seçkisi də adlandırmaq olar.

Komitə sədrinin dediyinə görə, Azərbaycan xalqı öz liderini hələ uzun müddət dövlətin başında görmək istəyir. Şübhəsiz ki, bu, xalqın ürəyindən gələn seçimdir. "Seçki üçün bütün prosedurlar hazırdır. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların hər biri üçün bərabər imkanlar yaradılıb. Partiyaların seçki dövründə təbliğat və təşviqatla məşğul olmalarına və seçki kampaniyaları keçirmələrinə heç bir əngəl yoxdur. Azərbaycanda bu dəfə də demokratik, hüquqi və sivil seçkilərin keçirildiyinin şahidi olacağıq", - deyə müsahibim bildirib.

Musa Quliyev vurğulayıb ki, budəfəki prezident seçkilərinin favoriti yenə Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyev olacaq: "Prezident İlham Əliyevin xalq arasında, eləcə də beynəlxalq ictimaiyyətdə reytinqi olduqca yüksəkdir. Bunun əsas səbəbi həm də 250 ildən artıq müddətdə ilk dəfə olaraq məhz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi və itirilmiş torpaqlarımızın geri qaytarılmasıdı. Eyni zamanda Azərbaycanın Prezident İlham Əliyevin hakimiyyəti illərində dünyanın taleyini həll edə bilən ölkələr sırasına daxil olması da nəzərə alınmalıdır. Azərbaycanın qlobal təşəbbüslərinin ardı-arası kəsilmir. Təsadüfi deyil ki, Qoşulmama Hərəkatına rəhbərlik etdiyi dövrdə bu qurum dünyada ən nüfuzlu təşkilata çevrilib. Bu, İlham Əliyevin beynəlxalq ictimaiyyət qarşısında ən böyük xidmətlərindən biridir. Həmçinin türk dünyasının birləşdirilməsi, yenidən təşkil olunması da Prezident İlham Əliyevin mühüm xidmətlərinin bəhrəsidir".

Komitə sədri əlavə edib ki, vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi, yeni iş yerlərinin açılması, rifah halının yaxşılaşdırılması, asayişin, əmin-amanlığın, milli təhlükəsizliyimizin qorunması və digər sahələrdə də dövlət başçısının böyük zəhməti və xidmətləri var. Seçkilərin vaxtından əvvəl keçirilməsi də Prezidentin gələcək dövr üçün qarşıya qoyduğu məsələlərin daha tez və daha uğurlu həllinə hesablanıb. İnanırıq ki, Azərbaycan xalqı həmişə olduğu kimi, bu seçkilərdə də fəal iştirak edəcək və öz liderini dəstəkləyəcək.

# Müzəffər Ali Baş Komandana etimad sonsuzdur

Fevralın 7-nə təyin olunmuş prezident seçkiləri müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində keçiriləcək. Bu mənada növbədənkənar prezident seçkiləri ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti kimi dəyərləndirilir. Hər zaman olduğu kimi, bu dəfə də seçkilər demokratik və sivil qaydada təşkil olunacaq.



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, 2024-cü ildə keçiriləcək prezident seçkiləri zəfər seçkisidir. Seçkinin digər şəhər və rayonlarımız daxil olmaqla, işğaldan azad olunmuş ərazilərimizdə də keçirilməsi bunun sübutudur.

Deputatın sözlərinə görə, Seçki Məcəlləsinə əsasən, növbəti prezident seçkiləri ilə növbədənkənar prezident seçkiləri arasında heç bir prosedur, yaxud müddət fərqi yoxdur. Həmçinin növbədənkənar seçkilərin keçirilməsi praktikası beynəlxalq təcrübədə də var. Belə olan halda seçicilər öz mövqelərini sərbəst şəkildə ifadə edə bilirlər. Vüqar Bayramov bildirib ki, ilk dəfə olaraq, Azərbaycanın bütün ərazilərində təşkil olunacaq budəfəki seçkilər də demokratik və azad formada keçiriləcək. Seçkiyə qatılacaq bütün siyasi partiyalara bərabər imkanlar yaradılacaq.

Deputat qeyd edib ki, Seçki Məcəlləsinə əsasən, növbədənkənar prezident seçkilərinin elan edildiyi gündən başlayaraq bir həftədən gec olmayan müddətdə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən çərşənbə gününə təyin edilir və 60 gün müddətində keçirilir. Həmin vaxt ərzində bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar. Ona görə də namizədlərin hər birinə seçkiqabağı fəaliyyət üçün lazımi şərait yaradılır. Onların təbliğat-təşviqat işlərini icra etmələri üçün mediadan da bərabər istifadə şərtləri müəyyənləşdirilir.

Vüqar Bayramov həmçinin vurğulayıb ki, qalib xalqın müzəffər liderinin növbədənkənar seçkilərlə bağlı qərarı bir daha Prezident, Ali Baş Komandan İlham Əliyevin özünə və xalqın öz liderinə olan böyük etimadını nümayiş etdirir. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən bir müzəffər Ali Baş Komandana da dərin inam və ehtiram yaraşır. Yəni Azərbaycan xalqının Prezident İlham Əliyevi dəstəkləməsinin səbəbləri möhkəmdir. Prezident də xalqın dəstəyinə əmin və arxayındır.

***N.QABİLQIZI,***
***"Azərbaycan"***

# "Şansları yoxdur"

## Prezident İlham Əliyev Ermənistana ağır vəziyyətdən bir daha çıxış yolunu göstərdi

Ermənistanda yaşanan demoqrafik problem səbəbindən ordunun şəxsi heyətlə təminatı indi daha sürətlə pisləşməkdə davam edir. Sərhədə göndərməyə lazımi sayda resurs yoxdur. Artıq Ermənistan rəhbərliyi də yaxşı bilir ki, həqiqi hərbi xidmətə çağırışla silahlı qüvvələri komplektləşdirmək mümkün olmur. Digər tərəfdən, orduda yaranan xaos səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması adi hal alır. Belə vəziyyətdə ordudan yayınanların sayının artması bununla bağlı qaldırılan cinayət işlərinin də sayını çoxaldır. Bir sözlə, Ermənistan ordusunda xaosun yeni dalğası başlayır.

Xatırladaq ki, Vətən müharibəsinin gedişində gənclərin ölkəni tərk etməsi ucbatından orduya adam tapa bilməyən Paşinyan hakimiyyəti qocalara ümid bağlamışdı. Döyüş meydanında papağını, hərbi biletini qoyub qaçan, yaralı əsgərlərini və meyitlərini döyüş meydanında atıb gedən erməni gənclərin fərarilik halları müharibə müddətində daha çox diqqət mərkəzində yer alırdı. Açıqlanan rəqəmlərdə qeyd olunurdu ki, ümumilikdə ölkədə axtarışa verilən 12 mindən çox adamın 10 min nəfəri hərbi xidmətdən boyun qaçıranlar olub. Onlar barəsində Cinayət Məcəlləsinin 327-ci maddəsi ilə cinayət işi açılıb. Bu, bir tərəfdən Ermənistan ordusunda olan dözülməz şəraitlə bağlı idisə, digər tərəfdən, erməni gənclərinin özününkü olmayan torpaqlar uğrunda döyüşmək istəməməsinin nəticəsi idi.

Prezident İlham Əliyev savaşdan öncə Ermənistan ordusunun hansı prinsiplər və əsaslar üzərində qurulduğunu, hansı mənəvi normalarla idarə edildiyini vurğulamaqla silahlı qüvvələrin güc mənbəyini göstərirdi. Amma Ermənistan rəhbərliyi öz ordusuna güvənərək dəfələrlə hərbi təxribatlara əl atdı və nəticədə silahlı birləşmələri 2020-ci ildə cəmi 44 günə Azərbaycan Ordusu qarşısında diz çökdü. Prezident İlham Əliyevin söylədiyi həqiqət bir daha Ermənistana dərs oldu.

Dekabrın 6-da Azərbaycan Prezidenti bir daha sülh müqaviləsini imzalamaqdan yayınan, Fransa, Hindistan tərəfindən silahlanmağa can atan rəsmi İrəvana xəbərdarlıq etdi. Ali Baş Komandan ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda dedi ki, Ermənistanı silahla təchiz edən Fransa və Hindistan kimi ölkələr hazırda odun üstünə yağ tökür və Ermənistanda reallıqdan uzaq xülyalar yaradır. Guya onlar həmin silahlardan istifadə edərək Qarabağı geri ala bilərlər: "Mən həmin silahların keyfiyyəti ilə bağlı təfərrüatlara varmaq istəmirəm, baxmayaraq ki, onların hansı növ silah olmasını bilirəm. Lakin hətta əgər çox müasir silahlar olsa belə, onların şansı olmayacaq, çünki müharibə və onun nəticəsi silahla deyil, insanlar və onların əzmkarlığı ilə həll edilir. İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın öz bəyanatlarına görə, erməni ordusunda döyüş meydanında 12 min fərari oldu, Azərbaycan Ordusunda isə sıfır. Beləliklə, onların şansı yoxdur".

Müharibənin gedişində Ermənistan parlamentinin növbədənkənar iclasının sessiyasında ikinci və yekun oxunuşda müharibə dövründə bəzi əməllərə görə cəzaların sərtləşdirilməsini nəzərdə tutan Cinayət Məcəlləsinə dəyişiklik layihəsi qəbul edilmişdi. Dəyişikliyə görə, müharibə dövründə hərbi xidmətdən, təlim düşərgələrindən və ya səfərbərlikdən yayınma əvvəllər nəzərdə tutulduğu kimi, 4 ildən 8 ilədək deyil, 6 ildən 12 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılmalıdır. Müharibə dövründə vəzifə borcunu yerinə yetirməkdən və ya vergi ödəməkdən yayınan şəxslər üçün cəzanın ən yüksək həddi 4 ildən çox olmayan müddətə azadlıqdan məhrumetmədən bir ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə dəyişdirilib. Müharibə dövründə əmrə tabe olmamağa görə cəza 5 ildən 15 ilədək müddətə azadlıqdan məhrumetmədən 8 ildən 15 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəzləşdirilib. Lakin bunun da təsiri olmayıb.

Ermənistanda postmüharibə dönəmində orduda vəziyyət daha da pisləşib. Ordudakı yüksəkvəzifəli zabitlərin özbaşınalıqları, rüşvətxorluğu, şəxsi heyəti kiçik komandirlərin (çavuş heyəti) idarə etməsi, onların nizamnamədənkənar və nalayiq davranışları əsas etibarilə müddətli xidmət edən əsgərlər arasında fərariliklə yanaşı, intihar hallarının sayının da sürətlə artmasına səbəb olub. Aparılan araşdırmalar hələ də Ermənistan ordusunun kütləvi şəkildə homoseksualizm bəlasından əziyyət çəkdiyini göstərir. Zabit və gizirlər tərəfindən hərbi qulluqçuların zorlanması və onlara təcavüz edilməsi, döyülməsi, zabit və gizirlərin hərbi qulluqçuların valideynləri ilə cinsi əlaqəyə girməsi və zorlama faktının şəxsi heyət tərəfindən aşkarlanması halları da ötən illərlə müqayisədə əhəmiyyətli dərəcədə artıb.

Komandir heyəti tərəfindən əsgər valideynlərinin pul gətirməyə vadar edilməsi, hərbi hissələrdən hərbi qulluqçuların qeyri-qanuni yolla müəyyən olunmuş pul müqabilində ay ərzində hərbi hissədən kənara buraxma halları, hərbi qulluqçular tərəfindən mülki əhaliyə qarşı bir çox cinayət, o cümlədən mülki şəxslərin əmlakının oğurlanması, əhaliyə qarşı zor tətbiq edilməsi, zorlama, təcavüz və digər belə hadisələrin törədilməsilə bağlı faktların sayı artmaqdadır.

Bundan başqa, orduda şəxsi heyət arasında narkotik maddə qəbuletmə halları da sürətlə yayılmaqdadır və belə maddələrin hərbi hissələrə gətirilməsi, şəxsi heyətə satılması planlı şəkildə zabit-gizirlərin himayəsi altında çavuş heyəti tərəfindən həyata keçirilir. Məvaciblərin az olması və vaxtında verilməməsi səbəbindən ordunun əmlakı yüksəkrütbəli hərbçilər tərəfindən talan edilərək satılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 dekabr 2023-cü il tarixli 7/16 saylı Qərarı ilə təsdiq edilmişdir.*

# Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planı

### Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli 4193 nömrəli Sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri elan edilmişdir

| Sıra sayı | Əsas hərəkət və tədbirlər | İcraçılar | Keçirilmə müddətləri | |
|---|---|---|---|---|
| | | | Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və digər hüquqi aktlara əsasən | Tövsiyə olunan müddətlər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) qərarının qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 60 gün qalmış<br>Maddələr: 8.1, 179.2, 207 | 2023-cü il dekabrın 9-dək |
| 2 | Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunmasına dair Mərkəzi Seçki Komissiyası qərarının dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Seçkilərin təyin edilməsi haqqında qərar qəbul edildikdən sonra ən geci 2 gün müddətində<br>Maddə 178.3 | 2023-cü il dekabrın 10-dək |
| 3 | Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin irəli sürülməsi | Aktiv (passiv) seçki hüququ olan vətəndaşlar, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar, siyasi partiyaların blokları | Seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra<br>Maddələr: 3, 53, 54, 180 | |
| 4 | Namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərarın qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Sənədlərin Komissiyaya təqdim edilməsindən sonra 5 gün müddətində<br>Maddələr: 53.6, 54.9 | |
| 5 | Azərbaycan Respublikası Prezidentliyinə namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələrinin verilməsi | Mərkəzi Seçki Komissiyası | Mərkəzi Seçki Komissiyasının prezidentliyə namizədliyin irəli sürülməsini təsdiq edən qərarından sonra<br>Maddələr: 53.6, 54.9 | |
| 6 | Azərbaycan Respublikası Prezidentliyinə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması | Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququna malik vətəndaşı, prezidentliyə namizəd, siyasi partiya, siyasi partiyaların bloku | Mərkəzi Seçki Komissiyasının prezidentliyə namizədliyin irəli sürülməsini təsdiq edən qərarından sonra<br>Maddələr: 56, 57, 181 | |
| 7 | Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında);*<br>Beynəlxalq (xarici) müşahidəçilər *(qanunla müəyyənləşdirilmiş qaydada müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə)* | Seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsi gününə 10 gün qalanadək<br>Maddələr: 1.1.19, 1.1.20, 40.4, 40.5, 40.6, 44 | 2024-cü il yanvarın 28-dək |
| 8 | Seçki dairəsinin ərazisində müşahidə aparılmasına dair ərizələrin müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında)* | Seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək<br>Maddələr: 1.1.19, 40.4, 40.5, 40.7 | 2024-cü il fevralın 2-dək |
| 9 | Səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə etmək üçün qeydiyyatdan keçməklə xüsusi icazə almaqdan ötrü Mərkəzi Seçki Komissiyasına müraciət edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında);*<br>Beynəlxalq (xarici) müşahidəçilər *(qanunla müəyyənləşdirilmiş qaydada müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə)* | Seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək<br>Maddələr: 1.1.19, 40.4, 40.5, 40.13, 44 | 2024-cü il yanvarın 28-dək |
| 10 | Müşahidəçilərin qeydə alınması və onlara Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəciklərin verilməsi | Mərkəzi Seçki Komissiyası<br>dairə seçki komissiyaları | Müşahidə aparılması barədə qərar ərizənin verildiyi tarixdən Mərkəzi Seçki Komissiyası tərəfindən 3 gün müddətində qəbul edilir.<br>Dairə seçki komissiyası tərəfindən isə 2 gün müddətində qəbul edilir.<br>Maddələr: 25.2.20, 40.6, 40.7, 44 | |
| 11 | Seçki rəsmiləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların keçirilməsi | Mərkəzi Seçki Komissiyası,<br>dairə seçki komissiyaları | Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 3.10-cu bəndi | Mütəmadi |
| 12 | Dairə və məntəqə seçki komissiyaları üzvlərinin təlimatlandırılması ilə əlaqədar treninqlərin təşkili və peşə hazırlığının artırılması ilə bağlı digər proqramların həyata keçirilməsinin təmin edilməsi | Mərkəzi Seçki Komissiyasının treninq qrupları | Maddə 25.2.7 | Mütəmadi |
| 13 | Dövlət avtomatlaşdırılmış informasiya sisteminin işini dairə seçki komissiyalarında təmin edən kompüter mütəxəssisləri üçün treninqlərin keçirilməsi | Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | Maddə 25.2.10 | Mütəmadi |
| 14 | Televiziya və radio proqramları və digər yayım qurumları vasitəsilə seçki qanunvericiliyinin izahının, seçicilərin hüquqi biliklərinin artırılmasının təmin olunması (çıxışlar, müsahibələr, dəyirmi masalar), əyani vəsaitlərin (videokliplər, plakatlar, bukletlər və s.) hazırlanması və nümayiş etdirilməsi | Mərkəzi Seçki Komissiyası | Maddələr: 25.2.7, 25.2.10 | Mütəmadi |
| 15 | Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və ya konsul idarələrində qeydə alınmış seçicilərin seçki dairələri üzrə seçici siyahılarına daxil edilməsi (seçicilərin sayı haqqında məlumatlar əsasında) və dəqiqləşdirilməsi, habelə həmin seçki dairələrinin siyahılarının təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası<br>*(Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təqdimatı əsasında)* | Səsvermə gününə ən azı 25 gün qalanadək<br>Maddələr: 29.2, 46.8 | 2024-cü il yanvarın 13-dək |
| 16 | Namizədin seçki fondunun formalaşdırılması üçün xüsusi seçki hesabının açılması | Prezidentliyə namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyaların bloku | Namizədlərin qeydə alınması üçün müvafiq seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi gününə azı 5 gün, qeydiyyat üçün zəruri olan seçici imzalarının yığılmasına azı 24 saat qalmış<br>Maddələr: 91.1, 91.2, 190.1 | |
| 17 | Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Prezidentliyə namizəd, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi | Səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18.00-dək<br>Maddə 58.1 | 2023-cü il dekabrın 19-dan 2024-cü il yanvarın 8-i saat 18.00-dək |
| 18 | Birinci ilkin maliyyə hesabatı | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi | Qeydiyyat üçün zəruri olan sənədlərlə birlikdə hesabatda göstərilmiş tarixə 2 gün qalmışdan əvvəlki dövr üçün məlumatlar daxil edilir<br>Maddə 94.3.1 | |
| 19 | İmza vərəqələrində və təqdim edilən digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınıb-alınmaması haqqında qərarın qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Sənədlər qəbul edildikdən sonra 7 gün müddətində<br>Maddələr: 59, 60, 182.1 | |
| 20 | Prezidentliyə namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin olunmuş vəkil edilmiş şəxslərin qeydə alınması və onlara lövhəciklərin verilməsi | Mərkəzi Seçki Komissiyası | Vəkil edilmiş şəxslərin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində<br>Maddələr: 72.1, 72.2, 186.1 | |
| 21 | Seçicilərin tanış olması üçün təqdim edilmiş seçici siyahılarında əlavə dəqiqləşdirmələrin aparılması | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 35 gün qalanadək<br>Maddə 48.1 | 2024-cü il yanvarın 3-dək |
| 22 | Seçici siyahılarının Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası | Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyənləşdirilən qaydada təsdiq edildikdən sonra<br>Maddə 46.1 | Mütəmadi |
| 23 | Səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin hazırlanma qaydasına və sayına dair tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 45 gün qalanadək<br>Maddə 101.1 | 2023-cü il dekabrın 24-dək |
| 24 | Səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası<br>dairə seçki komissiyaları | Səsvermə vəsiqəsi səsvermə gününə azı 45 gün qalanadək Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilir;<br>səsvermə gününə azı 25 gün qalanadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilir.<br>Maddələr: 101.1, 101.2 | 2023-cü il dekabrın 24-dək<br>2024-cü il yanvarın 13-dək |
| 25 | Qeydə alınmış namizədlərin siyahısının dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 20 gün qalanadək<br>Maddə 182.3 | 2024-cü il yanvarın 18-dək |
| 26 | Seçkiqabağı təşviqatın aparılması | Qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri | Səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.<br>Maddələr: 75, 189 | 2024-cü il yanvarın 15-i başlayır, fevralın 6-sı saat 8.00-da dayandırılır |
| 27 | Bilavasitə seçkilərdən əvvəl seçki məntəqələrinin yaradılması:<br>a) yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə;<br>b) həmin yerlərdə müstəsna hallarda | Dairə seçki komissiyaları *(seçicilərin olduqları ərazilərdə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) və bələdiyyə qurumlarının başçıları ilə birlikdə)*<br>dairə seçki komissiyasının qərarına uyğun olaraq müvafiq qurumların rəhbərləri | Səsvermə gününə azı 50 gün qalanadək<br>Maddələr: 35.2, 35.4, 35.5<br>səsvermə gününə azı 5 gün qalanadək<br>Maddə 35.5 | 2023-cü il dekabrın 19-dək<br>2024-cü il fevralın 2-dək |
| 28 | Azərbaycan Respublikasının dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında (seçicilərin sayı 50-dən artıq olduqda), seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında) seçki məntəqələrinin Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada yaradılması;<br>həmin yerlərdə Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi müstəsna hallarda seçki məntəqələrinin yaradılması | Dairə seçki komissiyaları<br>*(müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumları ilə razılaşdırmaqla)* | Səsvermə gününə ən azı 50 gün qalanadək<br>Maddələr: 35.2, 35.4<br>səsvermə gününə azı 5 gün qalanadək<br>Maddə 35.4 | 2023-cü il dekabrın 19-dək<br>2024-cü il fevralın 2-dək |
| 29 | Nömrələri və hüdudları göstərilən seçki məntəqələrinin siyahısının (seçki məntəqəsi yaşayış məntəqəsi ərazisinin bir hissəsini əhatə etdikdə), yaşayış məntəqələrinin siyahısının (seçki məntəqəsi bir neçə yaşayış məntəqəsində yaradılmışsa), habelə məntəqə seçki komissiyaları, səsvermə otaqlarının yerləri (ünvanları) və məntəqə seçki komissiyalarının telefon nömrələri haqqında məlumatların dərc edilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 45 gün qalanadək<br>Maddə 35.7 | 2023-cü il dekabrın 24-dək |
| 30 | Seçki Məcəlləsinin 35.4-cü və 35.5-ci maddələrində göstərilmiş müstəsna hallarda yaradılan seçki məntəqələri haqqında məlumatların dərc edilməsi | Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada | Seçki məntəqələrinin yaradılması günündən ən geci 2 gün keçənədək<br>Maddə 35.7 | |
| 31 | Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılan seçki məntəqələri üzrə Seçki Məcəlləsinin 35.7-ci və 109-cu maddələrində göstərilən məlumatların dərc edilməsi | Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin rəhbərləri | Seçki məntəqələri yaradıldıqdan, eləcə də səsvermə keçirildikdən sonra<br>Maddə 35.8 | |
| 32 | Seçki komissiyalarının səsvermə protokollarının hazırlanması qaydasına, mətninə, formasına, sayına, hazırlanmasına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən geci 45 gün qalanadək<br>Maddələr: 100.1 - 100.6 | 2023-cü il dekabrın 24-dək |
| 33 | Seçicilərə müvafiq dairə seçki komissiyası və ya məntəqə seçki komissiyası tərəfindən qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin verilməsi | Dairə seçki komissiyaları<br>məntəqə seçki komissiyaları | Səsvermə gününə 45-25 gün qalanadək<br>səsvermə gününə 24-3 gün qalanadək<br>Maddələr: 101.2 - 101.4 | 2023-cü il dekabrın 24-dən 2024-cü il yanvarın 13-dək<br>2024-cü il yanvarın 14-dən fevralın 4-dək |

*Ardı 9-cu səh.*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 dekabr 2023-cü il tarixli 7/16 saylı Qərarı ilə təsdiq edilmişdir.*

# Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planı

## Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli 4193 nömrəli Sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri elan edilmişdir

*Əvvəli 8-ci səh.*

| Sıra sayı | Əsas hərəkət və tədbirlər | İcraçılar | Keçirilmə müddətləri: Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və digər hüquqi aktlara əsasən | Keçirilmə müddətləri: Tövsiyə olunan müddətlər |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 34 | Hər bir seçki məntəqəsi üzrə təsdiq edilmiş seçici siyahılarının dəqiqləşdirilməsi: | Dairə seçki komissiyaları və məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 25 gün qalanadək | 2024-cü il yanvarın 13-dək |
| | a) yolu çətin və ya ucqar yerlərdə yaradılan seçki məntəqələri üzrə seçici siyahılarının dəqiqləşdirilməsi; | | Səsvermə gününə azı 25 gün qalanadək, müstəsna hallarda isə məntəqə seçki komissiyasının yaradılmasından 2 gün sonra; Maddələr: 46.1, 46.5 | 2024-cü il yanvarın 13-dək |
| | b) hərbi hissələrin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin (hərbi hissələrdə yerləşən hərbi qulluqçuların, hərbi hissələrin yerləşdiyi ərazinin hüdudlarında yaşayan hərbi qulluqçu ailələrinin, istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin və cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların və digər seçicilərin) siyahılarının dəqiqləşdirilməsi | məntəqə seçki komissiyaları *(hərbi hissə komandirlərinin, istintaq təcridxanaları və cəzaçəkmə müəssisələri rəhbərlərinin seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında)* | Səsvermə gününə azı 20 gün qalanadək Maddə 46.6 | 2024-cü il yanvarın 18-dək |
| 35 | "Exit-poll" keçirmək niyyətində olan təşkilatların akkreditasiya üçün təqdim etdikləri sənədlərin qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən azı 20 gün qalanadək **Maddə** 25.2.23 "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.1-ci bəndi | 2024-cü il yanvarın 18-dək |
| 36 | "Exit-poll" keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən azı 10 gün qalanadək **Maddə** 25.2.23 "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndi | 2024-cü il yanvarın 28-dək |
| 37 | Səsvermə günü xarici dövlətlərdə olan və konsul qeydiyyatına durmuş seçicilərin səs verməsi üçün seçki məntəqələrinin yaradılması | Seçicilərin olduqları ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin rəhbərləri | Səsvermə gününə azı 30 gün qalanadək Maddə 35.6 | 2024-cü il yanvarın 8-dək |
| 38 | Seçki bülletenlərinin hazırlanması qaydasına, mətninə, formasına, sayına, hazırlanmasına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 35 gün qalanadək Maddələr: 99.1 - 99.4, 199 | 2024-cü il yanvarın 3-dək |
| 39 | Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsi | Dairə seçki komissiyasının təklifi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları | Səsvermə gününə azı 30 gün qalanadək Maddə 87.6 | 2024-cü il yanvarın 8-dək |
| 40 | Seçkiqabağı təşviqatın aparılması üçün müvafiq yerlərin ayrılması | Dairə seçki komissiyasının təklifi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları | Səsvermə gününə 23 gün qalanadək Maddələr: 11, 86.3 | 2024-cü il yanvarın 15-dək |
| 41 | Səsvermə protokollarının Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 20 gün qalanadək Maddə 100.8 | 2024-cü il yanvarın 18-dək |
| 42 | Səsvermə protokollarının dairə seçki komissiyasından məntəqə seçki komissiyalarına verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 4 gün qalanadək Maddə 100.8 | 2024-cü il fevralın 3-dək |
| 43 | Seçkilər günü səsvermənin yeri və vaxtı barədə media və ya məlumat lövhələri vasitəsilə seçicilərin xəbərdar edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 25 gün qalanadək Maddə 104.1 | 2024-cü il yanvarın 13-dək |
| 44 | İkinci ilkin maliyyə hesabatının təqdim edilməsi | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri | Səsvermə gününə ən tezi 20, ən geci 10 gün qalanadək Maddə 94.3.2 | 2024-cü il yanvarın 18-dən 28-dək |
| 45 | Seçki bülletenlərinin hazırlanması | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən azı 10 gün qalanadək Maddə 99.4 | 2024-cü il yanvarın 28-dək |
| 46 | Səsvermənin keçirilmə tarixi, vaxtı və yeri (ünvanı) barədə bildirişlərin seçicilərə paylanması | Məntəqə seçki komissiyaları | Səsvermə gününə 7 gün qalanadək "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları"nın 3.1-ci bəndi | 2024-cü il yanvarın 31-dək |
| 47 | Seçki bülletenlərinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 5 gün qalanadək Maddə 99.6 | 2024-cü il fevralın 2-dək |
| 48 | Seçki bülletenlərinin dairə seçki komissiyasından məntəqə seçki komissiyalarına verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 3 gün qalanadək Maddə 99.6 | 2024-cü il fevralın 4-dək |
| 49 | Səsvermənin keçirilməsi: a) həmin gün seçki məntəqəsində səsverməyə hazırlıq işlərinin başlanması; b) seçki məntəqələrinin açıq elan edilməsi və seçki qutularının kilidlənməsi; c) səsvermənin başlanmasının elan edilməsi; ç) səs vermək üçün seçicilərin seçki məntəqəsinə daxil olmasının başa çatmasının elan edilməsi | Məntəqə seçki komissiyaları *a) məntəqə seçki komissiyaları* *b), c), ç) məntəqə seçki komissiyalarının sədrləri* | Maddələr: 104, 105, 200 | 2024-cü il fevralın 7-si bir qayda olaraq a) saat 7.30 b) saat 7.50 c) saat 8.00 ç) saat 19.00 |
| 50 | Səsvermənin gedişi, seçicilərin səsvermədə iştirakı barədə ilkin məlumatların verilməsi (gün ərzində 5 dəfə) | Məntəqə və dairə seçki komissiyaları, Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | Maddələr: 110.5, 110.6 | Seçki günü: saat 10.00; saat 12.00; saat 15.00; saat 17.00; saat 19.00. |
| 51 | Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının və dairə seçki komissiyasının yekun protokollarındakı məlumatların Mərkəzi Seçki Komissiyasının internet saytında ilkin məlumat kimi yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | Maddələr: 110.5, 110.6 | Seçkilər günü və ondan sonra |
| 52 | Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokolunun 1-ci nüsxəsinin ona əlavə edilən sənədlərlə birlikdə dairə seçki komissiyasına göndərilməsi | Məntəqə seçki komissiyası | Seçicilərin səslərinin hesablanmasına yekun vurulandan sonra dərhal, lakin 24 saatdan gec olmayaraq Maddələr: 106.5, 106.7 | |
| 53 | Məntəqə seçki komissiyasının yekun protokolunun 3-cü nüsxəsinin məlumat lövhəsində asılaraq nümayiş etdirilməsi | Məntəqə seçki komissiyası | Protokol tərtib edildikdən sonra (5 gün saxlanılmaqla) Maddə 106.11 | |
| 54 | Seçki dairəsi üzrə seçkilərin nəticələrinin müəyyən olunması, dairə seçki komissiyası protokolunun tərtib edilməsi və protokolun 1-ci nüsxəsinin ona əlavə edilmiş sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim olunması | Dairə seçki komissiyası | Səsvermə günündən ən geci 2 gün keçənədək Maddələr: 107.1 - 107.4, 202.1 | 2024-cü il fevralın 9-dan gec olmayaraq |
| 55 | Dairə seçki komissiyası protokolunun 3-cü nüsxəsinin və müvafiq məntəqə seçki komissiyaları protokollarının surətlərinin məlumat lövhəsində asılaraq nümayiş etdirilməsi | Dairə seçki komissiyası | Protokol tərtib edildikdən sonra (10 gün saxlanılmaqla) Maddə 107.7 | |
| 56 | Seçkilərin ilkin nəticələrinin Mərkəzi Seçki Komissiyası tərəfindən seçki dairələri üzrə ümumiləşdirilmiş cədvəl şəklində dərc edilməsi və həmin məlumatların Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası | Seçkilərin ilkin nəticələri dairə seçki komissiyaları üzrə səsvermənin nəticələrinə dair protokol Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən dərhal sonra Maddə 109.1 | |
| 57 | Dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə məntəqə seçki komissiyasının maliyyə hesabatının dairə seçki komissiyasına təqdim edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə günündən sonra 5 gün müddətində Maddə 96.6 | 2024-cü il fevralın 13-dək |
| 58 | Dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə dairə seçki komissiyasının maliyyə hesabatının Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Dairə seçki komissiyaları | Səsvermə günündən sonra 10 gün müddətində Maddə 96.7 | 2024-cü il fevralın 18-dək |
| 59 | Prezident seçkilərinə yekun vurulması və nəticələrin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən başlayaraq 10 gün müddətində Maddə 203 | 2024-cü il fevralın 17-dək |
| 60 | Yekun maliyyə hesabatının təqdim edilməsi (seçki fonduna vəsaitlərin daxil olmasını və xərclənməsini təsdiq edən ilkin maliyyə sənədləri də qoşulmaqla) | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri | Seçkilərin nəticələrinin rəsmi dərc edildiyi gündən ən geci 10 gün sonra Maddə 94.3.3 | |
| 61 | Dairə seçki komissiyalarının protokollarında olan məlumatların tam şəkildə dərc edilməsi (həmin məlumatlar Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilə bilər) | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən sonra 45 gün müddətində Maddələr: 109.2, 208 | 2024-cü il martın 24-dək |
| 62 | Büdcə vəsaitlərinin istifadəsi, namizədlərin, qeydə alınmış namizədlərin seçki fondları vəsaitinin və siyasi partiyaların, siyasi partiyalar bloklarının vəsaitinin xərclənməsi barədə məlumatların Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə və media nümayəndələrinə təqdim edilməsi | Mərkəzi Seçki Komissiyası | Seçkilərin ümumi nəticələrinin rəsmi dərci günündən sonra 3 ay müddətində Maddə 96.9. | |
| | göstərilən maliyyə hesabatının və məlumatların Mərkəzi Seçki Komissiyasının rəsmi mətbuat orqanında dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Hesabatın və məlumatların Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi gündən başlayaraq 1 ay müddətində Maddə 96.9 | |
| 63 | Məntəqə və dairə seçki komissiyalarının protokollarında olan məlumatların Mərkəzi Seçki Komissiyasının rəsmi nəşrində tam şəkildə dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Seçki günündən sonra 6 ay müddətində Maddə 109.5 | 2024-cü il avqustun 8-dək |

QƏRAR № 7/18

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mərkəzi Seçki Komissiyasının nəzdində İşçi qrupunun yaradılması və rəhbərinin təyin edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Bu seçkilərdə prezidentliyə irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələrindəki imzaların düzgünlüyünü və digər seçki sənədlərində olan müvafiq məlumatları yoxlamaq üçün Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59.2-ci maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Əmlak Məsələləri Dövlət Xidmətinin, Azərbaycan Respublikası Hesablama Palatasının mütəxəssisləri sırasından ekspertlər daxil edilməklə müvafiq işçi qrupu yaradılmalı, Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvlərindən biri həmin qrupa rəhbər təyin edilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 59.2-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində prezidentliyə namizədin qeydə alınması üçün təqdim edilən imza vərəqələrində olan imzaların və digər məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Əmlak Məsələləri Dövlət Xidmətinin, Azərbaycan Respublikası Hesablama Palatasının mütəxəssisləri sırasından ekspertlərdən ibarət İşçi qrupu yaradılsın.
2. Mərkəzi Seçki Komissiyasının üzvü Etibar Quliyev İşçi qrupunun rəhbəri təyin edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*08.12.2023*



MÖHTƏŞƏM 20 İL 2003 2023

# Azərbaycanın repatriasiya nümunəsi

## Məcburi köçkünlərin doğma el-obalarına dönüşü ən mütərəqqi şəkildə təmin edilir

**Azərbaycan xalqı, hər bir azərbaycanlı bu gün yalnız müasir deyil, son bir neçə əsrlik dövlətçilik tariximizin ən şərəfli və qürurlu günlərinə şahidlik edir. Çünki son bir əsrdə ilk dəfə olaraq ölkəmizin ərazi bütövlüyünü təmin etmişik. Son bir neçə əsrdə birinci dəfə olaraq işğal altındakı torpaqlarımızın azad edilməsinə nail olmuşuq. Buna qədər isə həm 19-cu əsrdə, həm 20-ci əsrdə yalnız itirmişik, əzilmişik, əsarət altında yaşamışıq, öz torpaqlarımızda məcburi köçkünə, qaçqına çevrilmişik.**



Bütün bunlar barədə düşünərkən, yenə də tarixə ekskurs etməli oluruq və görürük ki, bu gün ucalan milli qürurumuzun təməlində 30 il əvvəl Azərbaycanda başlanan Heydər Əliyev siyasəti dayanır. Bu siyasətin ötən 20 ildə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə və qətiyyətli davam etdirilməsinin nəticəsi olaraq Azərbaycan artıq xeyli müddətdir ki, öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Ötən 20 ilin ən böyük həqiqəti odur ki, Prezident İlham Əliyev Azərbaycanı ildən-ilə öz inkişafının yeni mərhələlərinə yüksəltdikcə, torpaqlarımızın işğaldan azad edilməsi üçün də etibarlı təməllər və möhkəm zəmin formalaşdırdı.

Beləliklə, İlham Əliyevin müdrik rəhbərliyi və qətiyyətli siyasətinin nəticəsində torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz təmin olundu. İndi Azərbaycan dövlətinin prioriteti və Prezident İlham Əliyevin dediyi kimi, milli ideyamız işğaldan azad edilmiş ərazilərimizin bərpası, məcburi köçkünlərin öz doğma el-obalarına dönüşünün təmin edilməsidir.

### 4 min nəfərdən çox vətəndaşımız doğma yurduna qayıdıb

2022-ci ilin yayından ötən müddət ərzində respublikamızda 4 min nəfərdən çox vətəndaşımız işğaldan azad ediləndən sonra yenidən qurulan şəhər və kəndlərdə daimi yaşamağa başlayıb. Məcburi köçkünlərin ilk olaraq Zəngilan rayonunun Ağalı kəndində məskunlaşması ilə başlanan geri dönüşləri göstərir ki, bu proses ən mütərəqqi şəkildə həyata keçirilir. Bununla Azərbaycan repatriasiya sahəsində də yeni nümunələr ortaya qoyur.

Əslində, repatriasiya bir şəxsin doğma ölkəsinə qaytarılmasına deyilir. Dünyada repatriasiya ilə bağlı nümunələr çoxdur. Xatırladım ki, BMT təsis edildiyi gündən repatriasiya problemi, öz ərazilərindən və ya öz ölkələrindən köçkün və qaçqın düşmüş insanların geri qayıdış prosesi istər beynəlxalq hüquqda, istər dövlətlərarası münasibətlərdə hər zaman diqqət mərkəzində olmuşdur.

Lakin istənilən halda söhbət insanın doğulduğu, böyüdüyü, yaşadığı, lakin müharibə nəticəsində qaçqın və köçkün düşdüyü bir coğrafi məkana qayıdışından gedir. Bu qayıdış xaricdən də ola bilər, ölkə daxilindən də. Azərbaycana gəldikdə, Ermənistanın Qarabağ bölgəsini və ətraf rayonlarımızı işğal etməsi nəticəsində 30 ilə yaxın doğma evlərindən köçkün düşmüş vətəndaşlarımız torpaqlarımızın azad edilməsindən sonra həyatlarının ən böyük arzusuna çatıblar və mərhələli şəkildə Qarabağ və Şərqi Zəngəzura qayıdırlar.

Məlum olduğu kimi, Azərbaycan dövləti hələ Vətən müharibəsinə qədər məcburi köçkünlərin, habelə tarixi Azərbaycan torpaqları olan indiki Ermənistandan didərgin salınmış soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün bütün imkanlarını səfərbər edib. Respublikamızın müxtəlif yerlərində bu məqsədlə 100-dən artıq qəsəbə və şəhərcik salınıb. Ulu Öndər Heydər Əliyevin bu sahədə müəyyən etdiyi kursu davam etdirən Prezident İlham Əliyev 2003-cü ildən sonra qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb.

2007-ci ildə Azərbaycanda sonuncu çadır şəhərciyi ləğv edilib. Cənab İlham Əliyev 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. Beləliklə, Azərbaycanda mövcud olmuş 12 çadır düşərgəsinin 2001-ci ildən başlayan ləğvi prosesi 2007-ci ilin sonunda başa çatdırılıb.

Bütün bunlar vaxtilə Nazirlər Kabinetində şöbə müdiri vəzifəsində çalışdığım və Milli Məclisdə fəaliyyət göstərdiyim illərə təsadüf etdiyindən həm Ulu Öndərimiz Heydər Əliyevin, həm möhtərəm Prezidentimiz İlham Əliyevin qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına nə qədər böyük diqqətlə yanaşmalarının şahidi olmuşam.

### Cocuq Mərcanlıdan başlayan Böyük qayıdış

2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq etmişdir. Bu proqram Qarabağ və Şərqi Zəngəzura qayıdışla bağlı hədəflərin, qarşıya qoyulan vəzifələrin sistemli, uzlaşdırılmış və nəticə etbarilə effektiv şəkildə həyata keçirilməsi üçün yol xəritəsi olan mühüm sənəddir və görülən işlərin daha da sürətləndirilməsinə xidmət edir.

Bu yerdə onu xatırlatmaq istərdim ki, Böyük qayıdış hələ Aprel zəfərindən sonra cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası və sakinlərin doğma evlərinə qayıdışı ilə başlayıb. Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ildə cəmi bir neçə aya bərpa olunan Cocuq Mərcanlı kəndində 24 illik fasilədən sonra həyat əvvəlkitək öz axarına qayıtdı. 24 illik yurd həsrətindən sonra Cocuq Mərcanlı sakinləri doğma el-obalarına qayıtdılar. Beləliklə, Böyük qayıdış Cocuq Mərcanlıdan başlanıldı.

Prezident İlham Əliyevin tapşırığına əsasən Böyük qayıdışın rəmzinə çevrilən Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid də tikildi. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesaj idi və bəyan edirdi ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Cocuq Mərcanlının bərpasından cəmi 3 il sonra həmin tarix də yetişdi və həm Şuşanın, həm də onun tarixi-mədəni və dini abidələrinin bərpasına başlanıldı.

Bu baxımdan artıq Vətən müharibəsindən sonra Cocuq Mərcanlının timsalında artıq Azərbaycan dövlətinin Böyük qayıdışın həyata keçirilməsi, məcburi köçkünlərin repatriasiyası ilə bağlı təcrübəsi formalaşmışdı.

### Müfəssəl dövlət proqramı

2021-ci il fevralın 2-də dövlətimizin başçısı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair reallaşdırılmalı olan 5 milli prioritetdən biri işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışdır. Sənəddə bununla bağlı deyilir: "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır".

Sərəncama əsasən, milli prioritetlərə uyğun olaraq "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmış və 2022-ci il iyulun 22-də təsdiq edilmişdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" isə "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə hazırlanmış və 16 noyabr 2022-ci il tarixdə dövlət başçısı tərəfindən təsdiq edilmişdir.

İşğaldan azad olunmuş ərazilərin dayanıqlı məskunlaşması çərçivəsində Böyük Qayıdışa dair I Dövlət Proqramında qarşıya qoyulan məqsədlərə uyğun olaraq bu gün işğaldan azad edilmiş ərazilərdə yüksək standartlara cavab verən yaşayış məntəqələri, o cümlədən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında müasir şəhərlər və kəndlər salınır, etibarlı su, elektrik, qaz, istilik təminatı, habelə, bərpaolunan enerji mənbələrindən istifadəyə əsaslanan "yaşıl" texnologiyaların tətbiqi ilə "yaşıl enerji" zonası yaradılır, qabaqcıl standartlara uyğun təhsil, səhiyyə, sosial xidmət, yol-nəqliyyat infrastrukturu qurulur. O cümlədən geri dönən vətəndaşlarımızın məşğulluq imkanları, insan kapitalının inkişaf etdirilməsi, sosial dəstək mexanizmlərinin geniş tətbiqi kimi məsələlər də diqqət mərkəzindədir və hər bir məqsəd birinci növbədə əhalinin layiqli həyat şəraitinin təmin olunmasına xidmət edir.

Bütün bu məsələlər əsas götürülməklə dövlətimizin ərazilərin bərpası və əhalinin qayıdışına dair baxışı və qarşıya qoyduğu hədəflər dövlət proqramının prioritet istiqamətlərini təşkil edir. Belə ki, dövlət proqramının tərtibi zamanı mütərəqqi beynəlxalq təcrübə, strateji inkişaf tendensiyaları nəzərə alınmaqla 6 prioritet məqsəd müəyyən edilib. Bu prioritetlər "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili", "Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini", "Əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması", "Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması", "Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası", "Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi"dir.

Bu prioritet məqsədlər təsdiq edir ki, məcburi köçkünlərin repatriasiyası kompleks məzmun daşımaqla, çoxsaylı tədbirlər sistemindən ibarətdir.

Onu da qeyd edim ki, dekabrın 6-da ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" forumu Azərbaycanın bu istiqamətdə gördüyü işləri dünyaya çatdırmaq baxımından böyük əhəmiyyət kəsb etdi. "Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar. Burada söhbət təkcə fiziki durumdan getmir. Söhbət 30 il ərzində doğma evlərindən məhrum edilmiş insanların psixoloji vəziyyətindən gedir. Onlar geri qayıtmaq vaxtını gözləyirdilər və bu gün biz əraziləri azad etdiyimiz üçün əlimizdən gələn hər şeyi edirik ki, prosesi sürətləndirək", - deyə Prezident İlham Əliyev forumda bildirmişdir.

### Ən müasir infrastrukturlar yaradılır

Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərinin yenidən qurulması, insanların doğma yurdlarına qayıdışı, burada məşğulluğun təmin edilməsi və yeni istehsal sahələrinin yaradılması üçün ilk növbədə tələblərə cavab verən infrastruktur mövcud olmalıdır. Təsadüfi deyil ki, azad edilmiş ərazilərdə ilk yenidənqurma işləri də məhz infrastrukturların bərpasından, yolların salınmasından, elektrik xətlərinin çəkilməsindən başlayıb.

Ötən 3 il müddətində Füzuli və Zəngilan beynəlxalq hava limanlarının, "Zəfər", "Tərtər-Çaylı-Suqovuşan-Talış", "Füzuli-Hadrut" yollarının, 16 su-elektrik stansiyasının, 12 elektrik yarımstansiyanın, yüzlərlə kilometrə çatan yüksəkgərginlikli elektrik verilişi xətlərinin inşası, Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin, Xarıbülbül, Qarabağ və Yasəmən hotellərinin, Şuşa Otel-Konqres Mərkəzinin, Laçın şəhərində 2 nömrəli tam orta məktəbin istifadəyə verilməsi göstərir ki, infrastrukturların yaradılması istiqamətində işlər olduqca sürətli və dinamik gedir. Bir məsələni də qeyd etməliyik ki, istifadəyə verilən hər bir infrastruktur obyektində innovativ yeniliklərə, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət ayrılır.

Hazırda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Əhmədbəyli-Füzuli-Şuşa, Talış-Tap Qaraqoyunlu-Qaşaltı sanatoriyası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü - Ermənistan sərhədi, Hadrut-Tuğ-Azıx mağarası, Xudafərin-Qubadlı-Laçın, Ağdam-Füzuli, Ağdam-Hindarx-Ağcabədi yollarının, Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu xətlərinin, Laçın Beynəlxalq Hava Limanının tikintisi davam edir.

Tezliklə işğaldan azad edilən ərazilərdə tikilən su-elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və onlardan 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro "yaşıl enerji" istehsal etmək mümkün olacaq.

Dövlət proqramına əsasən, qarşıdakı illərdə azad edilmiş ərazilərdə yeni, o cümlədən rəqəmsal yarımstansiyaların şəbəkəsi genişləndiriləcək və bundan irəli gələrək elektrik verilişi xəttlərinin çəkilişi davam etdiriləcək.

Bütün bunlarla yanaşı, hazırda demək olar ki, bərpaolunan bütün şəhərlərdə məktəblər, xəstəxanalar, uşaq bağçaları və digər sosial və vətəndaşlara xidmət infrastrukturları yaradılır.

Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının hərəkətə gətirilməsi və geri dönən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün azad edilmiş ərazilərdə iqtisadi subyektlərin yaradılması da dövlət tərəfindən təşviq olunur və İqtisadiyyat Nazirliyinin sahibkarlara dəstəyi ilə iri iqtisadi layihələr həyata keçirilir.

İndiyə kimi bu məqsədlə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, Ağdam Sənaye Parkının, Laçın Aqro və Sənaye Parkının və Zəngilanda "Dost Aqropark"ın təməli qoyulub.

İnfrastrukturla bağlı işlərin miqyası olduqca əhatəli və məzmunludur. Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, 2026-cı ilin sonuna qədər azad edilmiş ərazilərdə bu istiqamətdə xeyli layihələr yerinə yetiriləcək ki, bütün bunlar da öz evlərinə qayıdan vətəndaşlarımızın rahatlığına və rifahına uğurla xidmət edəcək.

### Artıq 2 şəhər və 3 kənddə yaşayış var

Əvvəldə qeyd etdiyim kimi, ötən ilin yayından etibarən azad edilmiş ərazilərdə məcburi köçkünlərin məskunlaşmasına başlanılıb. Belə ki, 2022-ci ilin iyul ayından Zəngilanın Ağalı kəndinə doğma sakinlərinin qayıdışı prosesi başlayıb. Artıq Ağalıda oturuşmuş və öz axarına düşmüş həyat var, kənd sakinlərinin yaşayış üçün bütün infrastruktur yaradılıb. Hazırda 175 ailənin və ya 871 nəfərin yaşadığı Ağalıda "ağıllı dövlət idarəçiliyi", "ağıllı infrastruktur" və xidmətlər, eyni zamanda "ağıllı təsərrüfat və biznes mühiti" yaradılıb. Kəndin enerjiyə olan tələbatı alternativ enerji mənbələrindən əldə edilir. Ağalıda 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası da tikilib. Burada poçt, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri təsis olunub. Kənddə tikiş fabriki, tibb məntəqəsi, aptek, mağaza, kafe, mobil operator xidməti də fəaliyyət göstərir.

Talış Ağalıdan sonra məcburi köçkünlərin qayıtdıqları ikinci kənddir. 2023-cü ilin mart ayında Tərtərin Talış kəndinin sakinlərinin doğma yurda qayıdışı təmin olunub. İlkin mərhələdə kəndə 20 ailə qayıdıb. Hazırda kənddə 20 ailə və ya 90 nəfər sakin yaşayır. Kənddə sakinlərin yaşaması üçün əlverişli şərait yaradılıb.

2023-cü ilin may ayında isə Laçın şəhərinin sakinləri 31 ildən sonra doğma evlərinə qayıdıblar. Azərbaycan Ordusunun nəzarətinə keçməsindən cəmi 9 ay sonra, 2023-cü ilin may ayında Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub. Bu gün Laçın şəhərində 363 ailə və ya 1389 nəfər sakin yaşayır. Bununla yanaşı, Laçın şəhərində bərpa və quruculuq işləri davam edir. Birinci mərhələdə şəhərdə 4 min nəfərə yaxın sakinin yaşaması nəzərdə tutulur.

Laçının Zabux kəndi də doğma sakinlərini qarşılayan yaşayış məntəqələri sırasındadır. Hazırda Zabuxda 121 ailə və ya 475 nəfər sakin yaşayır. İlkin mərhələdə kənddə 223 ailə məskunlaşacaq.

İşğal dövründə ermənilərin tamamilə dağıtdığı və çoxsaylı minalar basdırdıqları Füzuli şəhəri də indi sürətlə yenidən qurulur. Füzuli şəhərinə 333 ailənin və ya 1186 nəfər sakinin qayıdışı təmin edilib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaq. Prezident İlham Əliyevin bu il oktyabrın 17-də Füzuli şəhər sakinləri ilə görüşdə qeyd etdiyi kimi, Böyük qayıdış proqramının birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda Füzuli rayonunda 22 min nəfər yaşayacaq.

Böyük qayıdış proqramına uyğun olaraq ümumilikdə 1012 ailənin (4012 nəfər) işğaldan azad olunmuş ərazilərə köçürülməsi təmin olunub. Cari ilin sonunadək əlavə olaraq 200-ə yaxın ailənin köçürülməsi gözlənilir.

Hazırda Şuşa, Ağdam, Füzuli, Laçın, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər şəhərlərində, Şuşa rayonunun Daşaltı kəndində, Xocavəndin Hadrut qəsəbəsində və Tuğ kəndində, Laçının Zabux kəndində bərpa və quruculuq işləri davam edir. Ermənilərin tamamilə dağıtdığı Ağdam, Füzuli, Laçın, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər şəhərləri yenidən qurulur. Bu il ərzində bəzi şəhərlərdə ilk yaşayış məhəllələrinin tikinti işlərinin başa çatması gözlənilir.

Sözügedən şəhər və kəndlərlə yanaşı, Füzuli rayonunun Dövlətyarlı, Pirəhmədli, Dədəli kəndləri, Qarğabazar, Cuvarlı və Qoçəhmədli kəndlərinin, Cəbrayıl rayonunun Xudafərin qəsəbəsinin, Şükürbəyli və Horovlu kəndlərinin, Laçın rayonunun Güləbird, Şəlvə kəndlərinin və Qorçu qəsəbəsinin, Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin, Qubadlı rayonunun Xanlıq və Mahrızlı kəndlərinin, Kəlbəcər rayonunun Yanşaq, Zallar və Zar kəndlərinin, Zəngilanın Cahangirbəyli kəndinin də təməlləri qoyulub. O cümlədən işğaldan ilk azad edilən Suqovuşanda bərpa və quruculuq işləri aparılmaqdadır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında bərpa edilən şəhər və kəndlərimiz ən müasir və əlçatan infrastrukturlara malik olacaq.

### 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evinə qayıdacaq

Bunlar indiyə qədər bərpa işləri aparılan və ya təməlləri qoyulan yaşayış məntəqələridir və göründüyü kimi, keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışlarını təmin etmək üçün hər bir rayon üzrə kənd və qəsəbələrin bərpası həyata keçirilir. Əlbəttə, ki, azad edilmiş ərazilərin bərpası yalnız evlərin tikintisi ilə məhdudlaşa bilməz. Ona görə bu gün Qarabağ və Şərqi Zəngəzurda həm də infrastrukturlar yenidən qurulur, iqtisadi fəaliyyət sahələri yaradılır, ermənilərin məhv etdiyi təbiətimiz bərpa edilir.

2023-cü ilin sonuna az qalıb. Amma həm bu il, həm də bütövlükdə, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin miqyası kifayət qədər əhatəli və böyükmiqyaslıdır. Gələn ilin dövlət büdcəsi ilə bağlı müzakirələrdə səsləndirildiyi kimi, bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurun bərpasına son 3 ildə ayrılmış vəsaitlərin həcmi 12 milyard manata çatacaq.

Prezident İlham Əliyev müxtəlif tədbirlər çərçivəsində və işğaldan azad edilmiş rayonlara səfərlər zamanı həmin ərazilərin bərpası və görüləcək işlər barədə ictimaiyyətə müfəssəl məlumatlar verir. Noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə bu mövzuya toxunan Prezident İlham Əliyev deyib: "Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər Böyük qayıdış proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq".

### Qərbi Azərbaycana qayıdış tarixi ədalətin bərpası olacaq

Ərazi bütövlüyünü təmin edən dövlətimizin bu gün əsas milli hədəflərindən biri də tarixi torpaqlarımız olan indiki Ermənistan ərazilərindən zorla didərgin salınmış soydaşlarımızın hüquqlarının təmin olunması, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi ilə tarixi ədalətin bərpasıdır. Prezident İlham Əliyev bununla bağlı deyib: "Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl atılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün tam haqlı olaraq bu mövzunu beynəlxalq arenaya çıxarmışıq. Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Bu, onların hüququdur. Bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək. Bunu sülh yolu ilə etmək istəyirik. Əminəm ki, buna nail olacağıq. Çünki bu gün, ümumiyyətlə, Avrasiya məkanında monodövlətlər yoxdur və Ermənistan üçün də yaxşı olar ki, bu monodövlət damğasını öz üzərindən götürsün. Bunun ən yaxşı və ən ədalətli yolu Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtmalarıdır".

Prezident İlham Əliyevin ötən ilin dekabr ayında Qərbi Azərbaycandan olan ziyalılarla görüşündə səslənən fikirlər də bir daha təsdiqlədi ki, növbəti hədəfimiz Qərbi Azərbaycanadır.

Məlum olduğu kimi, XX əsr boyu, azərbaycanlılar mərhələli şəkildə - 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə tarixi torpaqlarımız olan indiki Ermənistan ərazisindən zorla çıxarılmış, etnik təmizləməyə məruz qalmışlar. Soydaşlarımızın vaxtilə mütləq əksəriyyət təşkil etdikləri indiki Ermənistan ərazisindən tamamilə çıxarılması 1991-ci ildə başa çatmışdır. Müasir tariximizdə Azərbaycan ilk dəfə qaçqın problemi ilə soydaşlarımızın Qərbi Azərbaycandan zorla çıxarılması ilə üzləşmişdir.

Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına əsasən, qarşıda dayanan əsas məqsəd və prinsiplər indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların könüllü şəkildə, təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıda bilmələri üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşmanın əldə edilməsi, geriyə qayıtma prosesinin müvafiq təhlükəsizlik, humanitar, sosial-iqtisadi yardım proqramları ilə təminat altına alınması, beynəlxalq nəzarət altında yenidənqurma və barışıq tədbirlərinin həyata keçirilməsi yolu ilə, geriyə qayıtmış insanların davamlı reabilitasiya və re-inteqrasiyasının təmin edilməsidir.

Bütövlükdə Qayıdış Konsepsiyasının məramı Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz ata-baba yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıdışlarına nail olunmasıdır. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan qarşısında dayanan bütün hədəf və məqsədlərə çatmağı bacaran dövlətdir. Bu baxımdan inanırıq ki, Qərbi Azərbaycandan zorla çıxarılmış, qaçqın düşmüş soydaşlarımızın doğma torpaqlarına geri dönüşü, hüquqi terminologiya ilə ifadə etsək, repatriasiyası layiqincə təmin olunacaq.

**Hadi RƏCƏBLİ,**
*siyasi elmlər doktoru, professor*

# REGİONLAR

## Gəncədə "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" adlı konfrans keçirilmişdir

**Gəncə Şəhər İcra Hakimiyyətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin dəstəyi, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Gəncə şəhəri üzrə Regional nümayəndəliyinin təşkilatçılığı ilə "İmamzadə" dini ziyarətgah kompleksində "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" adlı regional konfrans keçirilmişdir.**



Konfransda şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək diqqətə çatdırmışdır ki, Azərbaycan xalqı olduqca zəngin milli-mənəvi dəyərlərə sahibdir: "Xalqımız tarixin ən çətin dövrlərində belə, bu dəyərlərə sadiq çıxmış, onu qoruyaraq gələcək nəsillərə çatdırmışdır. Ümummilli Lider hər zaman milli-mənəvi dəyərlərimizə çox böyük hörmətlə yanaşıb. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin təbliği istiqamətində mühüm addımlar atılıb. Bu gün də hər birimizin vəzifəsi, Ulu Öndərin dediyi kimi, azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmaqdır".

Sonra Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Gəncə şəhəri üzrə nümayəndəsi Hacı Tahir Abbasov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov və başqaları Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının dövlətçilik tarixindəki müstəsna xidmətlərindən, milli-mənəvi dəyərlərimizə olan qayğısından danışmış, Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı, dünya miqyaslı siyasətçi İlham Əliyevin müasir Azərbaycan dövlətinin tarixindəki rolundan söhbət açmışlar.

Konfransın sonunda Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə hazırlanan "Ulu Öndər və milli-mənəvi dəyərlər" mövzusunda videoçarx nümayiş etdirilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Yenə qələbə



### Bu dəfə Qarabağ və Şərqi Zəngəzurda erməni vandalizminin nəticələri ilə aparılan "savaş"da

**Müharibə tarixdir - döyüşərək yazılan tarix. Müharibə qəhrəmanlıqdır - savaşaraq qazanılan qəhrəmanlıq. Qəhrəmanlıqla yazılan tarixin adı isə zəfərdir - şəhidlərin, qazilərin qanı ilə əldə olunan zəfər. Biz üç ildir həmin zəfərin sevincini yaşayırıq. Biz üç ildir Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik qətiyyətindən, cəsarətindən və siyasi iradəsindən qürur duyuruq.**

İndi də işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı abadlıq, quruculuq işlərinə şahidlik edirik. Elə bunun da zamanı 3 ildir. Bu zaman kəsiyində görülən işlərin miqyası isə heyrətamizdir - 30 ilə yaxın müddətdə erməni vəhşiliyinin qurbanına çevrilən, dağıdılan, hətta yerlə yeksan edilən kəndlər, şəhərlər sürətlə bərpa olunur, öz tarixi sakinlərini qəbul edir. Cəmi 3 ilə görülən çox böyük işlər nəticəsində yeni, modern üslubda yaşayış məntəqələri salınıb, infrastruktur qurulub, yollar çəkilib, dağıdılan dini, tarixi abidələrimiz bərpa edilib. Bütün bu işlər Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən reallaşdırılır.

Artıq proqramda nəzərdə tutulmuş 100 yaşayış məntəqəsinin 52-nin layihəsinin konseptual həlli qəbul edilib. Prezident 29 yaşayış məntəqəsinin təməlini qoyub. Ümumilikdə 2021-2023-cü illərdə dövlət başçısı tərəfindən 105 layihənin icrasına start verilib ki, onlardan da 63-ü artıq istifadədir. Müharibədən cəmi il yarım sonra - 2022-ci il iyulun 19-dan başlayaraq Laçın və Füzuli şəhərlərinə, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndlərinə ümumilikdə 679 ailə olmaqla 2715 nəfər keçmiş məcburi köçkünün qayıdışı təmin edilib. İlin sonuna qədər isə ümumən 1400-ə yaxın ailənin (5000-dən artıq şəxsin) yurda qayıdışı gözlənilir. Cəmi 9 aya inşa edilmiş Füzuli Beynəlxalq Hava Limanının ardınca Zəngilanda daha bir aeroport istifadəyə verilib, Laçın rayonunda hava limanının tikintisi isə sürətlə davam edir. Bunlardan başqa, işğaldan azad olunmuş ərazilərdə məktəblər, xəstəxanalar, hotellər, konqres mərkəzləri istifadəyə verilib, 22 yol layihəsindən 6-nın tikintisi başa çatıb və s.

Xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 6 istiqamət üzrə prioritetlər müəyyənləşdirilib: kənd təsərrüfatı, ərzaq sənayesi, dağ-mədən sənayesi, "yaşıl enerji", nəqliyyat-logistika və turizm. Konsepsiya regionun coğrafiyası, təbii iqlimi, tarixi-mədəni əhəmiyyəti və nəqliyyat potensialı nəzərə alınaraq hazırlanıb. Şuşa şəhəri mədəniyyət paytaxtımız kimi Azərbaycan tarixinə yazılıb. Ağdam şəhəri yüngül sənaye və xidmət, Zəngilan, Cəbrayıl və Füzuli rayonları nəqliyyat-logistika qovşağı olmaqla yanaşı, həm də əkinçilik və "yaşıl enerji", Laçın, Kəlbəcər rayonları dağ-mədən sənayesi, turizm və heyvandarlıq mərkəzi olacaq. Nəticədə bu mərkəzlər ölkə iqtisadiyyatında prioritet istiqamət olan qeyri-neft sektorunun inkişafını ciddi şəkildə sürətləndirəcək.

Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda Qarabağ və Şərqi Zəngəzurun quruculuğu ilə bağlı fikirlərini tədbir iştirakçılarına belə çatdırıb: "Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar. Burada söhbət təkcə fiziki durumdan getmir. Söhbət 30 il ərzində doğma evlərindən məhrum edilmiş insanların psixoloji vəziyyətindən gedir. Onlar geri qayıtmaq vaxtını gözləyirdilər və bu gün biz əraziləri azad etdiyimiz üçün əlimizdən gələn hər şeyi edirik ki, prosesi sürətləndirək. Biz hər şeyi lazımi qaydada etmək istəyirik. Proses mümkün qədər tez keçməlidir, lakin fikrimiz ondan ibarətdir ki, burada ən yaxşı memarlıq təcrübəsi və ən yaxşı texnologiya, o cümlədən "yaşıl texnologiya" tətbiq edilməlidir ki, yaşayış üçün ən yaxşı şərait yaradılsın. Beləliklə, azad olunmuş ərazilər şəhərlərin inşası baxımından yeni yanaşma nümayiş etdirəcək. Hesab edirəm ki, bu təcrübə bir çox ölkələr və şəhərlər üçün faydalı olacaqdır, o şəhərlər ki, müəyyən dərəcədə bizimlə eyni vəziyyətdədir".

Bu fikirlərin davamı olaraq deyə bilərik ki, İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda təməllərini atdığı hava limanları, yaşayış məskənləri, tunellər, yollar gələcək illərdə regionun hərtərəfli inkişafına xidmət göstərəcəkdir. Ağdamda tikilən Sənaye Parkı, Cəbrayılda inşasına başlanmış Araz Vadisi İqtisadi Zonası, Kəlbəcərdəki heyvandarlıq və arıçılıq təsərrüfatları Qarabağın və Şərqi Zəngəzurun müasir həyatının reallıqlarıdır. Bütün bunlar həm də yeni iş yerləri, daimi məşğulluq sahələridir. Görülən genişmiqyaslı işlərin ən əsası əhalinin rahat yaşaması üçün vacib sayılan enerji təminatıdır. Bölgənin enerji təminatı məsələləri sürətlə həll edilir. 12 su-elektrik stansiyası yenidən bərpa olunaraq istifadəyə verilib. Ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" və "Kəlbəcər-1" Kiçik Su-Elektrik stansiyaları işə salınıb. İndiyədək bu stansiyalarda 30 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

Görülən bu işlər bölgədə məşğulluğun təminatına xidmət edən əməli addımlardır. "Əsas məsələ keçmiş məcburi köçkünlər üçün yaxşı şərait və iş yerləri yaratmaqdır. Yeri gəlmişkən onu da deyim ki, iş yerlərinin yaradılması da vacib sahələrdəndir və biz qayıdış prosesini planlaşdırarkən diqqətimizi buna yönəldirik. Beləliklə, geri qayıdan insanların əksəriyyəti artıq işlə təmin edilib və bu bir daha onu nümayiş etdirir ki, bizim yanaşmamız hərtərəflidir" sözlərini Prezident İlham Əliyev adıçəkilən forumda söyləyib. Beləliklə, deyə bilərik ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda erməni vandalizminin nəticələri ilə başlanan "savaş"da da qalib gəlirik.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## İşləyənin təknəsi çörəksiz qalmır

**İlin sonu yaxınlaşdıqca ölkənin hər yerində olduğu kimi, Şabranda da ötənlərə nəzər yetirilir, ortaya çıxmış problemlər araşdırılır, həlli yolları axtarılır. Həm kənd təsərrüfatı, həm də sənaye sahələrində görülən işlərin nəticələri təhlil edilir.**



Şabranlılar da ölkənin sosial-iqtisadi inkişafından geridə qalmamağa çalışırlar. Bunu cari ilin ötən 9 ayı ərzində görülən işlər aydın göstərir. Aqrar sənaye rayonu Şabranda qeyd olunan dövr 45 milyon 501,8 min manatlıq sənaye məhsulu istehsal edilib ki, bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. Ümumi istehsalın 82,9 faizini sənaye məhsulları, 17,1 faizini isə sənaye xidmətləri təşkil edib. Məhsulun 82,9 faizi emal, 14,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Rayonun avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri də işlərini genişləndiriblər. Əvvəllər cəmi bir neçə kəndə marşrut avtobusu vardı. İndi onların sayı artıb. Bu hesaba nəqliyyat təsərrüfatları tərəfindən 4,2 milyon nəfər sərnişin daşınıb ki, bu da 2022-ci ilin müvafiq dövrünə nisbətən 18 faiz çoxdur. Eyni zamanda avtomobil nəqliyyatı ilə 342 min tondan çox yük daşınıb. Bu göstərici də keçən ilin eyni dövründəkindən artıqdır.

Şabranda fəaliyyət göstərən müəssisələr tərəfindən yerinə yetirilmiş inşaat-tikinti işlərinə gəldikdə, hesabat dövründə həmin işlərin dəyəri 6,9 milyon manat olub. Bu işlərin 3,8 milyon manatlığı hüquqi, 3,1 milyon manatlığı fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən yerinə yetirilib. İnformasiya və rabitə sahəsində isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 1,1 faiz artaraq 582,5 min manat təşkil edib ki, onun da 395,8 min manatlığı əhali tərəfindən istifadə olunub. Eyni zamanda əhaliyə göstərilən xidmətlərin dəyəri 4,8 faiz artıb.

Cari ilin əvvəlindən bu günədək rayon üzrə pərakəndə ticarət şəbəkələrindən istehlakçılara 91 milyon 321,2 min manatlıq məhsul satılıb. Onun 46 milyon 853,2 min manatlığını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 44 milyon 468 min manatlığını qeyri-ərzaq malları təşkil edib. İctimai iaşə dövriyyəsi 5 milyon 242,6 min manat olub ki, bu da əvvəlki ildən 13 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri də 7,2 faiz artaraq 13 milyon 746 min manata çatıb. Əhaliyə hüquqi şəxslər tərəfindən 9 milyon 246,7 min manatlıq xidmət göstərilib. Bu isə xidmətlərin ümumi dəyərinin 67,3 faizidir.

Rayonda əhalinin yeni iş yerləri ilə təmin edilməsi də davam edir. Məşğul əhalinin tərkib hissəsi olan muzdla çalışan işçilərin sayı 7430 nəfərdir. Onlardan iqtisadiyyatın dövlət sektorunda 3700, qeyri-dövlət sektorunda 3730 nəfər çalışır. Şabranda 9 ayda 248 yeni iş yeri açılıb və 475 yeni fərdi sahibkarlıq subyekti yaradılıb. Yeni iş yerlərində daha çox təhsili olanlara üstünlük verilib.

İlin əvvəlindən qazanılan göstəricilər şabranlıların bu ili uğurla yola salacaqlarından xəbər verir. Bu səbəbdən onlar gələcəyə ümidlə baxırlar. Yaxşı bilirlər ki, çalışanın təknəsi heç vaxt boş qalmır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 420-dən çox daimi iş yeri yaradılacaq

**Dövlət başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanına əsasən, Cəbrayıl rayonunda 200 hektar ərazidə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Artıq sənaye parkının 5 rezidenti və 1 qeyri-rezidenti var.**

İnvestorlar tərəfindən parka ümumilikdə 33 milyon manata yaxın investisiyanın yatırılması, 420-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev AZƏRTAC-a bildirib ki, ölkəmizdə fəaliyyət göstərən digər sənaye parklarında olduğu kimi, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da sahibkarlar üçün əlverişli biznes mühiti formalaşdırılır, rezidentlər dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilirlər. İlkin olaraq parkda çalışacaq işçilərin rahatlığının təmin edilməsi üçün mobil şəhərcik salınıb. Tikinti aparılacaq sahənin su və işıqla təmin edilməsi məqsədilə subartezian quyusu qazılıb, 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb.

Eyni zamanda parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergisi, eləcə də istehsal məqsədilə idxal olunan texnika, texnoloji avadanlıq və qurğulara görə ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

"Yaradılan əlverişli investisiya mühitinin nəticəsidir ki, hazırda Sənaye Parkının 5 rezidenti və 1 qeyri-rezidenti var. Parka investorlar tərəfindən ümumilikdə 33 milyon manata yaxın investisiyanın yatırılması, 420-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bu rezidentlərdən biri ("Avto Lizinq Azərbaycan") hazırda fəaliyyətə başlayıb. Belə ki, cari ilin iyununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun iştirakı ilə müəssisənin açılış mərasimi olub. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstərilir", - deyə Elşad Nuriyev bildirib.

İdarə Heyətinin sədri qeyd edib ki, digər rezidentlər tərəfindən hazırda Sənaye Parkında tikinti-quraşdırma işləri aparılır. Bir neçə müəssisənin də 2024-2025-ci illərdə istifadəyə verilməsi planlaşdırılır. "Rezidentlər tərəfindən indiyədək sənaye parkına 10 milyon manata yaxın investisiya yatırılıb. Bununla yanaşı, hazırda İqtisadi Zonaların İnkişafı Agentliyində Sənaye Parkının rezidenti olmaq üçün sahibkarlar tərəfindən təqdim edilən 5-ə yaxın layihəyə baxılır. İş adamlarının "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında mövcud investisiya imkanlarından yararlanmağa və öz layihələrini reallaşdırmağa lazımi şərait var", - deyə o əlavə edib.

## Qəzalı vəziyyətdə olan binaların sakinləri üçün yeni mənzillər inşa edilir

**Goranboy və Dəliməmmədli şəhərlərində qəzalı vəziyyətdə olan çoxmənzilli yaşayış binalarının sakinləri üçün yeni binalar tikilir.**



Goranboy şəhərində 36 mənzilli 4, Dəliməmmədli şəhərində isə 16 mənzilli 1 ikimərtəbəli yaşayış binası sökülərək yerində yeni binaların tikintisinə başlanılmışdır. Qısa vaxt keçməsinə baxmayaraq, bütün binalarda tikinti işlərinin 30 faizi yerinə yetirilmişdir. Rayon rəhbərliyi də inşaat işlərinin gedişinə nəzarət edir. Rəhbərlik tez-tez tikintiyə baş çəkir, işlərin vaxtında, keyfiyyətlə və müvafiq tikinti normalarına uyğun yerinə yetirilməsi, binanın bütün kommunikasiya xətlərinin təchizatı ilə bağlı iş icraçıları və sakinlərlə görüşür, problemlərlə maraqlanır. Yeni binalarda ev alacaq sakinlər həm işlərin sürətindən, həm də keyfiyyətindən razılıq edirlər.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

# Milli Kitabxanada "Məhmət Akif Ərsoy. Seçmə şeirlər" kitabının təqdimatı olub

Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə dekabrın 8-də türk ədəbiyyatının görkəmli nümayəndəsi Məhmət Akif Ərsoyun anadan olmasının 150 illiyi münasibətilə Azərbaycan dilinə uyğunlaşdırılan "Məhmət Akif Ərsoy. Seçmə şeirlər" kitabının təqdimatı olub.



AZƏRTAC xəbər verir ki, Milli Kitabxanada keçirilən təqdimat mərasimində TÜRKSOY-un Baş katibi Sultan Raev, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, həmçinin ölkənin bir sıra tanınmış elm və mədəniyyət xadimləri, media nümayəndələri iştirak ediblər.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov TÜRKSOY-un türk dünyasının mədəni irsinin təbliğinə, incəsənət sahəsinə verdiyi dəyərlərdən söz açıb. O, Milli Kitabxana ilə TÜRKSOY təşkilatının 15 il qarşılıqlı şəkildə əməkdaşlıq etdiyini, görkəmli şəxslərin yaradıcılığı ilə bağlı tədbirlər həyata keçirdiyini qeyd edib.

Milli Kitabxananın direktoru Məhmət Akif Ərsoyun kitabının Azərbaycan dilinə ilk dəfə tərcümə olunduğunu, kitabın şairin yaradıcılığının daha çox tanınmasına zəmin yaradacağını bildirib.

TÜRKSOY-un Baş katibi Sultan Raev Məhmət Akif Ərsoyun yaradıcılığından danışıb, onun türk dünyasının ədəbiyyatına bəxş etdiyi bənzərsiz ədəbiyyat nümunələrindən söhbət açıb. O, Akif Ərsoyun millətin ruhunda dərin izlər buraxan şairlərdən biri olduğunu, türk dünyasının milli şairləri arasında yer aldığını vurğulayıb. Həmçinin natiq şairin anadan olmasının 150 illiyi münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY Daimi Şurasının qəbul etdiyi qərarla 2023-cü ilin "Türk dünyasında Məhmət Akif Ərsoy İli" elan edildiyini diqqətə çatdırıb.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxışında TÜRKSOY-un 30 illik yubileyini əlamətdar hadisə kimi dəyərləndirib. O, TÜRKSOY-un fərqli coğrafiyalarda yaşayan, lakin eyni soy-kökündən gələn türk xalqları üçün önəmli işlər gördüyünü vurğulayıb. Həmçinin nazir müavini Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi və ilk dəfə keçirilən Türk Dünyası Mədəniyyət Forumu haqqında danışıb.

Mədəniyyət nazirinin müavini deyib ki, ilk dəfədir Məhmət Akif Ərsoyun şeirləri Azərbaycan dilində kitab şəklində çap olunur. Buna baxmayaraq, o, Azərbaycan oxucusuna çoxdan tanışdır.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar TÜRKSOY vasitəsilə türk dünyasının daha da yaxınlaşdığını bildirib. "Akif Ərsoy az-az şairlərdəndir ki, onun şeiri oxunanda hamı ayaq üstə qalxır. Söhbət Türkiyə himnindən gedir",- deyə Xalq yazıçısı bildirib.

Kitabın hazırlanmasında əməyi keçənlərə təşəkkürünü bildirən Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan oxucusunun Məhmət Akif yaradıcılığına sonsuz sevgisindən danışıb.

Türkiyənin Azərbaycandakı səfirliyinin Mədəniyyət və Tanıtım müşaviri Muhittin Macit, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev çıxışlarında təqdimatı keçirilən kitabın şairin zəngin dilini, dərin düşüncəsini, duyğu dərinliyini ehtiva edən, türk millətinin tarixini, mədəniyyətini, ruhunu əks etdirən mühüm sənəd olduğunu, Azərbaycan-Türkiyə mədəni əlaqələrinin sürətlə inkişaf etdiyini, Məhmət Akif Ərsoyun islam şairi, vətən şairi olduğunu bildiriblər.

Sonda TÜRKSOY-un 30 illik yubileyi ilə əlaqədar Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimlərinə TÜRKSOY-un "Şərəf" və "TÜRKSOY-un 30 illiyi" medalları təqdim edilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**

**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**

**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Qarşılıqlı etimada əsaslanan ilk addım
ZƏFƏR MANDATI
2024-cü il fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri keçiriləcək
Azərbaycan ilə Ermənistan arasında razılıq əldə olundu
Prezidenti bu dəfə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan seçəcək
İlham Əliyevdən ədalət dərsi
Bədxahlara dəqiq və aydın mesaj
Erməni diversant 18 il müddətinə azadlıqdan məhrum edilib
Ədalətli və dürüst
Daha 25 ailə Füzuli şəhərinə qayıtdı
Qarabağ Universitetindən gənclər nə gözləyirlər?
"Washington Post"un 750 əməkdaşı son 48 ilin ən böyük tətilini keçirir
Ölkəmizdə güclü zəlzələ gözlənilmir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Hərbi qulluqçulara növbəti daimi mənzillər verilib

Dekabrın 8-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində daimi mənzillərin verilməsi ilə bağlı püşkatma mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə hərbi qulluqçuların ailə üzvləri, nazirliyin müvafiq qurumlarının nümayəndələri və media mənsubları iştirak ediblər.



Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 28 dekabr 2011-ci il tarixli Fərmanının icrasının təmin edilməsi məqsədilə yaradılmış komissiya tərəfindən 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuların böyük bir qrupuna daimi mənzillərin verilməsi ilə bağlı bu gün növbəti püşkatma keçirilir.

Mənzillər xidmətdə olan və ehtiyata buraxılmış hərbi qulluqçulara, eləcə də vəfat etmiş hərbi qulluqçuların varislərinə ailə tərkibi nəzərə alınmaqla, "Daimi mənzillərin verilməsi üzrə mənzil komissiyası" tərəfindən verilib.

Növbəti püşkatma nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansından 28 mənzil, habelə Mənzil İnşaat Dövlət Agentliyinin balansından 445 mənzil, ümumilikdə isə 473 mənzil növbəlilik prinsipinə əsasən hərbi qulluqçular arasında bölüşdürülüb.

Qeyd edək ki, hərbi qulluqçuların ailələrinə Abşeron rayonu, Bakının Sabunçu və Suraxanı rayonlarında müvafiq sahəsi olan mənzillər şəffaflıq və ədalətlilik prinsipi əsasında verilib.

# Antibiotiklərlə bağlı doğru bilinən yanlışlar



Mikrobların inkişafını dayandıran və onları məhv edən antibiotiklər aşkar edilənə qədər yoluxucu xəstəliklər milyonlarla insanın ölümünün əsas səbəblərindən biri idi. 1928-ci ildə şotlandiyalı bakterioloq Aleksandr Fleminq tərəfindən təsadüfən yaradılan ilk antibiotik olan penisillin kəşf edilənə qədər taun, vəba, tif, vərəm və çiçək epidemiyaları kütləvi ölümlərlə nəticələnirdi. Hətta 1665-ci il London vəba epidemiyasında yazılmışdı ki, "sağ qalanlar ölüləri basdırmağa kifayət etmədilər".

Hazırda penisillin əhəmiyyətini, demək olar ki, tamamilə itirib. Buna səbəb isə əksər mikrobların, penisillini parçalayan "penisillinaza" adlı ferment hazırlamaqla, özlərini ondan qoruya bilməsidir.

İndi dünyada təxminən 200 növdən çox antibiotik var. Növünün bu qədər çox olmasının səbəbi isə özlərini antibiotiklərin hücumundan qorumaq üçün mikrobların bəzilərinin onlara qarşı davamlılıq yaratmasıdır. Ən pisi də ondan ibarətdir ki, bir-biri ilə cütləşən bu mikroblar antibiotiklərə qarşı davamlılığı bir növdən digərinə ötürürlər. Məhz buna görə alimlər daim yeni növ antibiotiklər hazırlamağa məcbur olurlar.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, məhz antibiotiklərin səbəbli-səbəbsiz istifadəsi, düzgün olmayan qəbulu dünyada antibiotiklərə davamlı olan mikrobların, yeni ştamların əmələ gəlməsinə səbəb olur. Alimlərin fikrincə, belə mikrobların sayı getdikcə artacaq və bu da bakterial infeksiyalardan ölümlərin artmasına səbəb olacaq. Ona görə də alimlər antibiotikləri yalnız zəruri hallarda təyin etməyi tövsiyə edirlər.

## Hər il təxminən 700 min insan antibiotikə davamlı bakteriyaların yaratdığı xəstəliklərdən həyatını itirir

Həkim-infeksionist Əminə İsmixanova deyir ki, dövrümüzün bəlası ondan ibarətdir ki, antibiotiklərdən düzgün istifadə edilmir: "Antibiotiklər məhz bakteriyalar əleyhinə olduğuna görə onlardan yalnız bakterial infeksiyalar zamanı istifadə olunmalıdır. Lakin Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, antibiotiklərin təxminən 50 faizi düzgün istifadə olunmur. Bu tendensiya artdıqca hər il təxminən 700 min insan antibiotikə davamlı bakteriyaların yaratdığı xəstəliklərdən həyatını itirir. Hətta 2050-ci ildə bu göstəricinin 10 milyona yaxın olacağı proqnozlaşdırılır".

İmmunitet sistemi bakteriyaların sayı çox olduqda onlarla tam mübarizə apara bilmir və bu vəziyyətdə həkimlər tərəfindən antibiotiklərdən istifadə tövsiyə edilir. Ə.İsmixanova bildirir ki, antibiotiklərdən çox istifadə etdikdə orqanizmin müqaviməti azalır, bağırsaqların mikroflorası pozulur. Nəticə etibarilə maddələr mübadiləsinin və vitamin sovrulmasının pozulması, eləcə də immunitetin zəifləməsi ilə digər xəstəliklərə daha tez yoluxma baş verir. Bundan əlavə, yüksək dozada istifadə olunan antibiotiklər qaraciyərə və böyrəklərə mənfi təsir göstərərək bu orqanların funksiyasını zəiflədir".

Orqanizm allergiyalara daha meyilli olduğuna görə mütəxəssis belə hallarda diqqətli olmağı tövsiyə edib. Həkim-infeksionist deyib ki, allergik xəstələrdə antibiotiklərin reaksiya vermə ehtimalı çoxdur. Bu zaman baş verən allergik reaksiya şoka qədər gətirib çıxarar.

## Fəsad verməyən qızılcada antibiotikdən istifadə etmək olmaz

Ə.İsmixanova deyir ki, antibiotiklərlə bağlı doğru bilinən yanlışlar var: "Belə ki, antibiotiklər hərarəti salmır. Xəstəliyin ağırlaşmasının qarşısını almaq üçün də antibiotik qəbul etmək yanlışdır. Onu vaxtından əvvəl istifadə etdikdə yaranan ikincili ağırlaşmanın qarşısını almır. Antibiotiki ağırlaşma olduqdan sonra hər hansı bir bakterial xəstəlik qoşulduqda vermək lazımdır".

Həkim-infeksionist bildirir ki, hər bir yaş qrupunun öz antibiotiki var. Bəzi yaş qruplarında isə onlardan, ümumiyyətlə, istifadə etmək olmaz: "Məsələn, tetraskilin qrupu 8 yaşa qədər uşaqlarda və hamilələrdə əks göstərişdir. Onlar sümük inkişafını ləngidir, dişlərdə geriyədönməz dəyişikliklər yaradır. Uşaqlarda hər hansı qusma, qızdırma əlamətləri olduqda bu 80-90 faiz hallarda virus mənşəli olur. Virus mənşəli xəstəliklərdə isə antibiotik heç bir təsir göstərmir".

Son həftələr sürətlə yayılan qızılcanın müalicəsində antibiotiklərdən istifadə haqqında danışan mütəxəssis qeyd edir ki, bu xəstəlik virus tərəfindən törədilir. Onun müalicəsinin yeganə yolu bol maye içmək, pəhrizə əməl etmək, yataq rejiminə keçməkdir. Qızılca ağırlaşarsa, pnevmaniya, otit, ensefalit- keratit, buynuz qişanın xorası və digər hallar olduqda həkimin nəzarəti ilə antibiotik təyin edilir. Qızılcada fəsad olmadan antibiotik təyin etmək olmaz.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Abşeron yarımadasının bəzi yerlərində intensiv yağış gözlənilir

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir, ayrı-ayrı yerlərində intensivləşəcəyi ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-9° isti, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-9° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti, bəzi yerlərdə 11° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 7-12° isti olacağı ehtimalı var.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 6-11° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-7° isti olacağı gözlənilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 8-13° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-7°, gündüz 8-13° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-7° isti olacağı ehtimal edilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əli Əsədovun ailəsi Əliyevlər ailəsinə **YAŞAR ƏLİYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya atası **YAŞAR ƏLİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya və Milli Məclisin Regional məsələlər üzrə iş komitəsinin sədri Siyavuş Novruzova əzizləri **YAŞAR ƏLİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının kollektivi Ombudsman Səbinə Əliyevaya atası, Milli Məclisin keçmiş sədr müavini, sabiq fövqəladə və səlahiyyətli səfir **YAŞAR ƏLİYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3208**

**Qiyməti 40 qəpik**